www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 avqust-2 sentyabr 2024-cü il Şənbə № 156 (8529) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanda növbəti dollar ajiotajı - süni, yoxsa...

yazısı səh.10-da

**Gündəm**

### "Minsk Qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir" - Prezident



"Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir"

yazısı səh.5-də

### Qərbi azərbaycanlılar üçün Kosovo variantı - ilginc gediş

yazısı səh.9-da

### Ölkə "sükut"da - tanınmışlar öz dairəsinin namizədlərini tanıyırmı...

yazısı səh.4-də

### Azərbaycanla Ermənistan komissiyaların birgə fəaliyyəti haqqında əsasnaməni imzaladı

yazısı səh.3-də

### Gecikmiş intiqam - İranın İsraili vuracağı tarix dəqiqləşdimi...

yazısı səh.4-də

### Məktəblərdə inkişafa mane olan "Kurtlar vadisi" metodologiyası

yazısı səh.11-də

### Fransa Durovu sındırsa... - şərh

yazısı səh.5-də

### Qadın qətllərinin statistikası dəhşət saçır

yazısı səh.12-də

### Nüvə müharibəsinin başlaya biləcəyi barədə xəbərdarlıq

yazısı səh.14-də

### Göygöldə 4 nəfər dərmandan zəhərlənib, 10 yaşlı uşaq ölüb

yazısı səh.12-də

### Tiflis prospektində "manatlıq" taksilərin fəaliyyəti dayandırılıb

yazısı səh.15-də

# PAŞİNYANIN 2027-Cİ İL KƏLƏYİ - İRƏVAN DANIŞIQLARI TORMOZLAYIR

Politoloqlar deyir ki, Ermənistan üçüncü müharibəyə hazırlanır, ona görə ərazi iddialarını saxlayacaq: "Nikol indi referenduma getməyə qorxur və hakimiyyətindən narahatdır, amma bu, bizi az maraqlandırır"



yazısı səh.7-də

## Polşada anti-Azərbaycan ruzigarı - neofaşist davranışda erməni izi, yoxsa...

**Sabir Rüstəmxanlı:** "Burada erməni diasporunun müəyyən rolu var və..."

yazısı səh.6-da



### Qurban Qurbanovun gözə gələn köynəyi

yazısı səh.3-də



*Eldəniz Əmirov:*

### "İğdır-Naxçıvan kəməri Azərbaycana öz qazını daha səmərəli istifadə etməyə şərait yaradacaq"

yazısı səh.13-də



*Fidan:*

### "Aİ-də Türkiyənin quruma üzvlüyü ilə bağlı siyasi iradə yoxdur"

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 156 (85296) 31 avqust 2024

# "Bakı Korpusu"nun yanacaq xidmətinin rəisi həbs edildi



**Müdafiə Nazirliyinin daha bir vəzifəli şəxsi həbs edilib. "Report" xəbər verir ki, "Bakı Korpusu"nun yanacaq xidmətinin rəisi, polkovnik Rüstəm Məmmədli Hərbi Prokurorluğun İstintaq İdarəsi tərəfindən təqsirləndirilən şəxs qismində cəlb edilib.**

O, mənimsəmədə və rüşvətalmada təqsirləndirilib. Belə ki, o, korpusun texnikaları üçün nəzərdə tutulan yanacağı satıb gəlir əldə edərək mənimsəməkdə ittiham olunur. İş üzrə zərərin 100 min manatdan çox olduğu qeyd edilir.

Polkovnik barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.



## Sırski: "Ukrayna ordusu Kurskda daha 2 kilometr irəliləyib"

**Sutka boyunca Ukrayna ordusu Kursk vilayətinin ərazisində daha 2 kilometr irəliləyib. APA "İnsider.ua"ya istinadən xəbər verir ki, bunu Ukrayna Ordusunun Baş komandanı Aleksandr Sırski deyib.**

O bildirib ki, bununla da ordu bölgədə 5 kvadrat kilometrlik ərazini nəzarətə götürüb.

Sırskinin sözlərinə görə, "hazırda Rusiya tərəfinin Pokrovka istiqamətindəki müdafiə xəttini yarmağa yönələn cəhdləri uğursuzluqla nəticələnir".



## Rusiya Xarkovda yaşayış binasını raketlə vurub, ölənlər və yaralananlar var

**Rusiya hərbi aviasiyasının Xarkovdakı yaşayış binasına raket zərbələri nəticəsində 4 nəfər dinc sakin ölüb, 28 nəfər isə yaralanıb. APA-nın məlumatına görə, bu barədə "Unian" xəbər yayıb.**

Bildirilib ki, binada şiddətli yanğın başlayıb, bundan sonra isə tikilinin bir hissəsi çöküb.

Yaxınlıqdakı bir neçə avtomobil də raket zərbələrindən alışıb.

## Parlament seçkiləri günü jurnalistlər üçün "Qaynar xətt" fəaliyyət göstərəcək

**Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərlə bağlı Mətbuat Şurasında "Qaynar xətt" fəaliyyət göstərəcək. Musavat.com xəbər verir ki, bu barədə şuradan məlumat verilib.**

Bildirilib ki, (012) 441 35 96 şəhər, (050) 242 09 91 və (055) 789 85 03 mobil nömrələri səsvemə başlayan andan bitənədək bu rejimdə fəaliyyət göstərəcək.

"Jurnalistlər bu nömrələrlə əlaqə saxlayaraq, prosesin işıqlandırılması zamanı mümkün anlaşılmazlıqlar və problemlər barədə məlumat vermək imkanı əldə edəcəklər. Bundan başqa, Mətbuat Şurasının İdarə Heyətinin jurnalist və müşahidəçi kimi qeydiyyatdan keçmiş üzvləri paytaxtdakı və bölgələrdəki dairə və məntəqə seçki komissiyalarında jurnalistlərin peşə fəaliyyətlərini gerçəkləşdirmələri üçün yaradılmış vəziyyəti müşahidə edəcəklər".

Qeyd edilib ki, Mətbuat Şurası jurnalistlərin Milli Məclisə növbədənkənar seçkilərin işıqlandırılması ilə bağlı sərbəst fəaliyyətlərinə dəstək məqsədilə sentyabrın 1-də müvafiq instansiyalarla əlaqəli şəkildə işləyəcək.

## Ukrayna 2029-un sonunadək Rusiya neftini Avropaya ötürəcək

**Ukrayna Rusiya neftinin Avropaya ötürülməsini 2029-cu ilin sonunadək davam etdirəcək.**

APA "Strana.news" saytına istinadən xəbər verir ki, bunu Ukraynanın Prezident Ofisi rəhbərinin müşaviri Mixail Podolyak deyib.

Bildirib ki, ölkəsinin müqavilə öhdəlikləri müqavilənin müddəti başa çatanadək icra olunacaq.

Qeyd edək ki, Ukrayna üzərindən Avropaya qaz ötürülməsi üzrə müqavilənin müddəti 2025-ci ilin yanvarında başa çatır. Neftin tranziti üzrə sənəd isə 2029-cu ildə qüvvədən düşəcək.

Bir qədər əvvəl o, yanlışlıqla Rusiya neftinin Avrozonaya ixracı haqqında sənədin müddətinin 2025-ci ildə bitəcəyini açıqlamışdı.



## Putin Monqolustandan təminat alıb - həbs olunmayacaq

**Monqolustan hakimiyyəti Kremlə Rusiya prezidenti Vladimir Putinin səfəri zamanı həbs olunmayacağı təminatını verib. Modern.az xəbər verir ki, bu barədə "Bloomberg" mənbələrə istinadən məlumat yayıb.**

Kremlin hazırlıqları ilə tanış olan iki mənbənin bildirdiyinə görə, Rusiya prezidenti Monqolustana planlaşdırılan səfərdən əvvəl Beynəlxalq Cinayət Məhkəməsinin orderi əsasında hərbi cinayətlərə görə həbs olunmayacağına dair zəmanət alıb.

Sentyabrın 3-də baş tutacaq səfər Ukraynanın işğal olunmuş ərazilərindən uşaqların oğurlanması ilə bağlı ötən ilin martında BCM tərəfindən order verildikdən sonra Putinin Roma Statutunu ratifikasiya etmiş dövlətə ilk səfəri olacaq.

Sənədə əsasən, Monqolustan öz ərazisində orderi icra etməli və Putini həbs etməyə borcludur.

Putin monqolustanlı həmkarının dəvəti ilə SSRİ və Monqolustanın Yaponiya qoşunları üzərində birgə qələbəsinin 85-ci ildönümünün qeyd edilməsində iştirak etmək üçün Monqolustana gedir.



## Dövlət sərhədini pozmağa cəhd edən şəxslər saxlanıldı

**Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qeyri-leqal miqrasiyaya qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən APA-ya verilən məlumata görə, avqust ayının 27-də saat 18:10-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən 3 (üç) nəfər Əfqanıstan İslam Respublikası vətəndaşları Səmədi Səfi Abdurrəhman oğlu, Səttari Sifər Xan oğlu və Vəkili Muhb Seyfulla oğlu saxlanılıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Sentyabr ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın olacağı gözlənilir

**Bu barədə APA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bildirilib ki, aylıq yağıntının miqdarı əsasən iqlim normasına yaxın, bəzi ərazilərdə isə normadan bir qədər çox olacağı ehtimal olunur.

Ayın əvvəlində ölkə ərazisində hava şəraitinin mülayim, əksər rayonlarda əsasən yağmursuz keçəcəyi gözlənilir.

Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 21-23 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 18-23 dərəcə isti, gündüzlər 24-29 dərəcə isti, bəzi günlərdə 32-34 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir (norma 12-23 mm).

# Qurban Qurbanovun gözə gələn köynəyi

## Məşhurlar geyim-keçimi haradan alır?



**Avqustun 28-də UEFA Çempionlar Liqasının pley-off mərhələsində "Dinamo Zaqreb"lə görüşdə məğlub olan "Qarabağ" futbol komandasının baş məşqçisi Qurban Qurbanovun geyindiyi köynəyin qiyməti maraq və təəccüb yaradıb. Təcrübəli məşqçinin köynəyinin dəyərinin 1835 manat olduğu deyilir.**

Əlbəttə, hər kəs maddi imkanına uyğun öz həyatını qurur, geyim, avtomobil və s. seçir. O ayrı məsələ ki, bu imkanı halal və qanuni qaynağa əsaslanır, yoxsa yox?

Musavat.com mövzu ilə bağlı siyasətçilərin fikrini öyrənib. Görək onlar hansı brenddən geyim almağa üstünlük verirlər.

**Milli Məclisin 6-cı çağırış deputatı olmuş Aqil Abbas** deyir ki, Qurban Qurbanov Azərbaycan xalqına bütün sevincləri yaşadıb. Onu hədəfə almaq düzgün deyil: "Qarabağ Avropa Liqasına düşüb, yəqin ki, orada öz məharətini göstərəcək. İndi Azərbaycanda hər kəs futbol professoru çıxıb. Hər kəs Qurban Qurbanova məsləhət verir. Məsləhətinizi özünüzə saxlayın, ya da gedin özünüzə bir don tikdirin. Qurban Qurbanov nəyi nə vaxt etməyi gözəl bilir. Bu futboldur. Qarabağ Xorvatiya kimi dünyanın futbol ölkəsi ilə oynayırdı. Futbolda uda da, uduza da bilərsən. Elə bir komanda yoxdur ki, haçansa uduzmasın. Həmişə qalib gəlmək mümkün deyil. Qarabağa da, Qurban Qurbanova da inanıram. "Qarabağ"ın atları öz qabiliyyətini göstərəcək və rəqibi tapdalayacaq.

Qurban Qurbanovun köynəyinin qiymətini müzakirə etmək mənasız söhbətdir. Qurban əyninə nə istəyir geyinə bilər. O geyindiyi "Adidas" formasıdır. Həmin formadan mənim də var. Qurbanın köynəyinin qiymətini müzakirə edənlər axmaq və ağılsız adamlardır. Qurban Qurbanov hamıdan gözəl görünməlidir. Biz yetim kimi geyinməliyik? Kasıb görünməliyik? Qurban Qurbanov Avropada az qala futbol dərsi keçir. Allah Qurban Qurbanova və komandasına ömür versin.

Mən isə əlimə nə keçir onu geyinirəm. Brend fikirləşən adam deyiləm. Nə geyinməyim məni narahat etmir. Əynimə nə gəldi onu geyinirəm".

**Milli Məclisin 6-cı çağırış deputatı olmuş Ceyhun Məmmədov deyir ki, insanların yanaşması müxtəlifdir. Bu məsələdən danışarkən hər kəs öz geyiminə cavabdeh olmalıdır:** "Mən şəxsən bahalı geyimlərin tərəfdarı deyiləm. Elə firmalar var ki, orada satılan geyimlərin qiyməti həddindən artıq bahalıdır. Dövlət məmurlarının bahalı geyinməsinin tərəfdarı deyiləm, çünki cəmiyyətin gözü məmurlardadır. İmkanlı insanlarla yanaşı, imkansız insanlar da var. Vətəndaş görəndə ki, məmur bir neçə minlik köynək geyinir, o qədər də xoş görünmür. Fərqli reaksiya və münasibətləri ortaya qoyacaq. Ona görə də mən çalışıram ki, Türkiyənin istehsal etdiyi orta qiymətli məhsulları alım. Bahalı məhsulları isə endirimli qiymətlərlə alıram.

Bizim cəmiyyət belə məsələlərin müzakirəsinə çox meyillidir. Bu cür məsələlərdə ehtiyatlı olmaq lazımdır. Klassik kostyumları 300-400 civarında olur. Ağ köynəklərə 50-100 manat verirəm".

**Siyasətçi Naqif Həmzəyev deyir ki, bahalı geyimləri sevmir:** "Əsas odur ki, keyfiyyətli olsun və əyinə rahat otursun. Hər insanın öz seçimi var. İnsanın gəliri varsa, bahalı da geyinə bilər. Qurban Qurbanova hücuma keçmək lazım deyil. Həmişə "Qarabağ"ın yanındayıq.

Əsas odur ki, səliqəli geyinəsən. Elə insanlar var ki, bahalı geyinir, ancaq qırış və ləkəli olur. Mən geyimlərimi daha çox Gəncədən alıram. Burada paltarlar ucuz olur. Bakıda isə bahalıqdır".

**Ağ Partiyanın sədri Tural Abbaslı deyir ki, brend paltar almır:** "Orta statistik azərbaycanlılar kimi geyinirəm. Əsas odur ki, əynimə yaraşsın. Xüsusi paltar aldığım mağaza yoxdur. Bahalı geyimim olmayıb. Kimsə halal pul qazanırsa, lap 15 minlik geyim alsın.

Qurban Qurbanovun bahalı geyinməsinə etirazımız yoxdur. Şəxsi işidir. Öz puludur, hara istəyirsə xərcləsin".

Qeyd edək ki, Musavat.com-un əməkdaşı "Emporium" brend mağazasına da baş çəkib. Bəlli olur ki, klassik yaxalı qısaqol polo 175 manata, monogram printli uzunqol polo 1065 manata satılır. Düz biçimli cins şalvarlar isə 1195 manata və daha baha qiymətə satılır.

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

## SOCAR-ın müəssisəsində yanğın

**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhəri, Suraxanı rayonu ərazisində yerləşən SOCAR-ın Neftqazelmitədqiqatlayihə İnstitutunun Eksperimental Təcrübə-Sınaq İşləri Müəssisəsinin ərazisində yanğın baş verməsi barədə məlumat daxil olub və dərhal FHN-in Dövlət Yanğından Mühafizə və Xüsusi Riskli Xilasetmə xidmətlərinin qüvvələri hadisə yerinə cəlb olunub.**

FHN-in Mətbuat xidmətindən APA-ya verilən məlumata görə, nazirliyin qüvvələri tərəfindən görülmüş zəruri və təxirəsalınmaz tədbirlər sayəsində yanğının ətraf ərazilərə, o cümlədən yaxınlıqdakı evlərə keçməsinin qarşısı alınıb.

## "20 Yanvar" metrostansiyasının yeraltı keçidlərində mağazalar bağlanıb

**Bakı Metrosunun "20 Yanvar" stansiyasının yeraltı keçidlərində fəaliyyət göstərən mağazalar fəaliyyətini dayandırıb. "APA-Economics"in əməkdaşının məlumatına görə, dünən səhər saatlarında mağazalar bağlı olub. Sahibkarların bildirdiyinə görə, qərar dünən axşam saatlarında verilib. Bildirilib ki, mağazaların hansı səbəbdən bağlanması bəlli deyil.**

"Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov "APA-Economics"ə bildirib ki, "20 Yanvar" və "Cəfər Cabbarlı" metro xətlərindəki keçidlərdəki obyektlərin onlara heç bir aidiyyəti yoxdur.

Bakı Şəhər İcra Hakimiyyətindən də keçidlərdəki mağazaların onlara aidiyyəti olmadığı bildirilib.

Mağazaların bağlanmasının səbəbləri barədə digər qurumlar hələlik açıqlama yaymayıb.



## Azərbaycanla Ermənistan komissiyaların birgə fəaliyyəti haqqında əsasnaməni imzaladı

**Azərbaycanla Ermənistan delimitasiya və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların birgə fəaliyyəti haqqında Əsasnaməni imzalayıb. APA xəbər verir ki, bu barədə Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının məlumatında deyilir.**

Məlumatda bildirilib ki, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, komissiyaların birgə fəaliyyəti haqqında əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb.

Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb.

Hazırda Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.




## Gömrük attaşeləri funksiyalarını diplomatik nümayəndəliklərin tərkibində həyata keçirəcək

**Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlardakı nümayəndələri (gömrük attaşeləri) öz funksiyalarını təyin olunduqları xarici dövlətlərdə və ya beynəlxalq təşkilatlarda akkreditə olunmuş Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin tərkibində həyata keçirəcək.**

Bu, Prezident İlham Əliyevin fərmanı ilə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında" Fərmana edilən dəyişiklikdə əksini tapıb.

Fərmana əsasən, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırdıqdan sonra bu fərmana uyğun olaraq razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlardakı nümayəndələri (gömrük attaşeləri) öz funksiyalarını təyin olunduqları xarici dövlətlərdə və ya beynəlxalq təşkilatlarda akkreditə olunmuş Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin tərkibində həyata keçirirlər və öz fəaliyyətlərini həmin nümayəndəliklərin fəaliyyəti ilə əlaqələndirəcəklər.

İndiyə qədər Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələri (gömrük attaşeləri) Azərbaycan Respublikasının həmin xarici dövlətlərdəki səfirliklərinə, onların bu səfirliklərin strukturlarına və ştat cədvəllərinə daxil edilməməsi şərti ilə ezam olunurdular.

# Azərbaycan “sükut”da - tanınmışlar öz dairələrinin namizədini tanıyırmı...

## Novella Cəfəroğlu: “Əksəriyyəti bilir ki, seçilməyəcək, lakin buna baxmayaraq, mübarizəni sona qədər aparırlar, bu yaxşı haldır”

**Avqustun 30-da ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkilərinin 3 həftəlik təbliğat-təşviqat kampaniyası mərhələsi başa çatdı. Bu gün artıq “sükut günü”dür. Seçki Məcəlləsinə və Mərkəzi Seçki Komissiyasının (MSK) təlimatına əsasən seçkidən bir gün əvvəl heç bir təbliğat-təşviqat aparıla bilməz. Əgər belə hal müşahidə olunursa, qanunsuzluq kimi qeydə alınacaq.**

Sabah sentyabrın 1-i artıq səsvermə günüdür. Səsvermə saat 08:00-da bütün respublika ərazisində başlayacaq, axşam saat 19:00-da isə məntəqə seçki dairələrində səsvermə dayandırılacaq. Bundan sonra səslərin sayılması prosesi başlayacaq.

MSK sədri Məzahir Pənahov açıqlama verib ki, ilkin nəticələri mümkün qədər tez elan etməyə çalışacaqlar. Sentyabrın 1-i gecəsi, yəni seçkilərdən bir neçə saat sonra nəticələr elan olunacaq.

“Bu seçkilərdə də çalışacağıq ilkin nəticələri həmin gecə çatdıraq. Bu, ilkin nəticələr olacaq, yekun deyil. İki gün ərzində dairələrdən protokollar bizə veriləcək”, - deyə MSK sədri qeyd edib.

Xatırladaq ki, ölkədə 125 dairə üzrə ümumilikdə 6 mindən çox seçki məntəqəsi var. İşğaldan azad edilən ərazilərdə isə 55 məntəqədə seçki olacaq.

Onu da qeyd edək ki, Azərbaycanın müstəqillik tarixində ilk dəfədir ki, parlament seçkiləri respublikanın bütün ərazilərində keçirilir.

Ölkənin siyasi partiyaları da demək olar ki, seçkidə aktiv iştirak edirlər. Belə ki, ölkədə qeydiyyatda olan 26 siyasi partiyadan 23-ü namizədləri ilə seçkidə iştirak edir.

Əgər bundan əvvəl 1052 nəfərin namizədliyinin qeydə alınması bildirilirdisə, son məlumata görə, seçkidə mübarizə aparan namizədlərin sayı 990 nəfərdir.

MSK sədrinin sözlərinə görə, seçkilərin müşahidəsinə 600-dən artıq beynəlxalq və 112 mindən artıq yerli müşahidəçi qoşulub, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırılıb.

Bəs tanınmış simalardan kimlər səsverməyə gedəcək? Onlar özyaşadığı yerlərdəki namizədlərini tanıyırlarmı?

**Hüquq müdafiəçisi, “Mənim səsim” Seçki Monitorinq Koalisiyasının həmtəsisçisi Novella Cəfəroğlu “Yeni Müsavat”a açıqlamasında bildirib:** “Bəli, yaşadığım ərazidəki namizədləri tanıyıram. Hətta seçicilərlə söhbətləşəndə böyük əksəriyyəti bir adamın adını çəkir, ona səs verəcəklərini deyirlər. Təbii ki, qaydalara əsasən həmin namizədin adını deyə bilmərəm.

Lakin onu da qeyd edim ki, ölkədə vətəndaşlarımızın əksəriyyəti öz namizədlərini heç tanımır. Bununla belə, bu il seçki məntəqələrində çox yaxşı mübarizə getdi. Apardığımız monitorinqlərə əsasən deyə bilərəm ki, namizədlərin əksəriyyəti seçicilərlə görüşməyə çalışdı. Bəziləri qapı-qapı gəzdilər ki, bu da böyük əlamətdir.

Həmçinin ölkədə olan siyasi partiyalar bu seçkidə iştirak edir, aktivdirlər.




Bəli, əksəriyyəti bilir ki, seçilməyəcək, lakin buna baxmayaraq, mübarizəni sona qədər aparırlar. Bu da çox sevindirici haldır.

Budəfəki seçkidə namizədlər həm də sosial şəbəkələrdə xeyli aktiv oldular. Yəni sosial şəbəkələrin imkanlarından istifadə edərək, özlərini tanıtdırmağa, təbliğat və təşviqatlarını aparmağa çalışdılar. Hesab edirəm ki, bu amil gələcək seçkilərə də öz müsbət təsirini göstərəcək.

MSK-nın da işini müsbət dəyərləndirirəm. Sənədləri qaydasında olan bütün şəxslər qeydiyyatdan keçib, namizəd oldular.

Bir sözlə, deyə bilərəm ki, getdikcə hər şey düzəlir".

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu qeyd edib ki, yaşadığı ərazidən olan namizədləri tanımır:** “Müşahidələrimdən onu qeyd edə bilərəm ki, namizədlər yalnız internet televiziyalarında çıxış etdilər, müəyyən kiçik tədbirlər keçirdilər. Yəni klassik mənada seçki rəqabəti deyilən bir şey yoxdur.

Ümumiyyətlə, namizədlərin əksəriyyəti formal olaraq namizəddir. Onların bir çoxu hətta hansı səbəbdən bu prosesə getdiklərini dərk edə bilmir. Beləliklə, formal olduğuna görə də bizim bildiyimiz klassik seçki rəqabəti getmir.

Bütün dünyada seçki siyasi qüvvələr arasında gedir. Amma bizim ölkədə seçki hakim partiya ilə sadə vətəndaşlar arasında gedir. Yəni siyasi müxalifət demək olar ki, seçkidə iştirak etmir.

O ki qaldı səsvermədə iştirak edib-etməyəcəyimə, bu haqda danışmaq istəmirəm".

**Politoloq Elxan Şahinoğlu isə sorğumuza bu cür cavab verdi:** “Yay ayları başlayandan bağa köçmüşəm. Bu baxımdan şəhərdə təbliğat-təşviqatın necə aparılmasından məlumatsızam. Həmçinin namizədlər haqqında da kifayət qədər məlumatım yoxdur.

İnternetdəki məlumatlar əsasında apardığım müşahidələrə görə deyə bilərəm ki, namizədlər daha çox sosial şəbəkələrdə aktiv oldular. Bölgələrə gəldikdə, orada yaşayan dost-tanışla əlaqə saxlayanda təbliğat-təşviqatın aktiv aparıldığı barədə fikir bildirməyiblər. Məsələn, böyük görüşlər çox nadir hallarda keçirilib.

Doğrudur, bəzi namizədlər ev-ev gəzməyə üstünlük veriblər və deyim ki, bu cür fəaliyyəti aparmaq olduqca çətindir. Yəni 30-40 min seçici varsa, fiziki baxımdan onların hamısının evinə gedib görüş keçirmək mümkün deyil.

Düşünürdüm ki, MSK namizədlər üçün böyük zallar ayıracaq və o zallarda möhtəşəm görüşlər keçiriləcək. Lakin bir-iki istisna ilə biz bunu görmədik.

Namizədlərimi tanımadığıma görə səsvermədə iştirak etməyəcəm".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Gecikmiş intiqam - İranın İsraili vuracağı tarix dəqiqləşdimi...

## Sabiq nazir: “Bu gün Tehranın bundan artığına gücü yetmir”

**İyulun 31-də Tehranda HƏMAS lideri İsmayıl Haniyənin qətlindən bir ay ötür. İranın yeni prezidenti Məsud Pezeşkianın andiçməsindən bir gün sonraya təsadüf edən hadisə ilə bağlı İran rəhbərliyi, SEPAH İsraili ən ciddi şəkildə hədələsə də, hələ ki, cənub qonşumuz ötən bir ayda əməldə hərbi xarakterli heç bir addım atmayıb.**



Bəlkə bu, ABŞ başda olmaqla aparıcı Qərb dövlətlərinin İranı xəbərdar etməsi ilə bağlıdır? Tehran hökumətinin ümumiyyətlə, qisas aktından imtina etdiyini söyləmək mümkünmü?

Maraqlıdır ki, bu arada Livanın MTV telekanalı xəbər verib ki, Pentaqon rəsmiləri bir sıra ərəb ölkələrinə, o cümlədən Livana İranın iki-üç gün ərzində Təl-Əvivə zərbə endirəcəyi ilə bağlı xəbərdarlıq edib. Telekanalın məlumatına görə, İranın İsrailə hücumu sentyabrın 1-də baş verə bilər.

Bu son tarixmi? İranın İsrailə gecikmiş hücumunun bölgəyə hansı təsirləri ola bilər?

Sabiq maliyyə naziri, Fikrət Yusifov “Yeni Müsavat”a bildirdi ki, İran İsrailə hücum etməyəcək. İran HƏMAS lideri İsmayıl Haniyənin qətlindən bir neçə ay öncə İsrailə hücum etdi və bu hücum zamanı istifadə olunan raketlərin və pilotsuz uçuş aparatlarının demək olar ki, hamısı havada vuruldu. Yalnız bir raket İsrail ərazisində hərbi hissəyə gedən yola düşə bildi. Üst-üstə bir neçə yüz raket və pilotsuz uçuş aparatlarının köməyi ilə edilən bu hücum bütün dünyaya İran hərb maşınının hansı səviyyədə olduğunu göstərdi. İsrailin bu hücuma cavabı isə çox sərt oldu.

İran müdafiə sistemi üçün digər bir biabırçılıq isə Tehranda HƏMAS liderinin öldürülməsi oldu: “Ölkəsinə gəlmiş ali qonağın təhlükəsizliyini təmin edə bilməmək qədər bacarıqsızlıq bəlkə də indiyə qədər rast gəlinməmiş bir hadisədir. Bu hadisə eyni zamanda İran liderlərinə ciddi xəbərdarlıq idi. İsrail bununla İran rəhbərliyinə bildirdi ki, əgər qırmızı xətti keçsəniz, hər biriniz evinizin içində HƏMAS liderinin aqibətini yaşaya bilərsiniz.

Bütün bunlardan sonra İran hansı üzlə İsrailə hücum edəcək. İran sadəcə olaraq hədə-qorxu gəlməklə məşğuldur. Bu gün İranın bundan artığına gücü yetmir. Ona görə İranın nə vaxtsa İsrailə hücum edəcəyi ilə bağlı verilən bəyanatların arxasında ciddi heç nə dayanmır".

Sabiq nazir xatırlatdı ki, HƏMAS liderinin öldürülməsindən sonra İranın İsraildən qisas alacağına dair rəsmi bəyanatlar səslənən kimi ABŞ dərhal öz hərbi gəmilərini İsrailə dəstək üçün göndərdi. Yəni Birləşmiş Ştatlar daim İsrailin yanındadır. İran, xüsusən də SEPAH bunu yaxşı bilir. O səbəbdən qırmızı xətti keçmək haqqında belə düşünmür.

F.Yusifov hesab edir ki, İranın İsrailə hərbi hücum etməsi ehtimalı olmadığı üçün İranın İsrailə hücumunun bölgəyə hansı təsirləri ola biləcəyi sualına cavab verməyə ehtiyac qalmır. Belə bir hücum olmayacaq və olmayacağı üçün də bölgəyə təsiri barədə də danışmağa lüzum qalmır.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (8529) 31 avqust 2024

# "Minsk Qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir" - Prezident

## "Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Musavat.com xəbər verir ki, qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən Şamil Ayrım Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş edib.

Qonaq Türkiyə Böyük Millət Məclisinin ölkəmizdə keçiriləcək parlament seçkilərində böyük heyəti ilə müşahidəçi statusunda iştirak edəcəyini bildirib. Bu seçkilərin Azərbaycanın bütün ərazisində keçirilən ilk parlament seçkiləri olmasının önəminə toxunan Şamil Ayrım suverenliyimizin və ərazi bütövlüyümüzün tam təmin edilməsinin əhəmiyyətini vurğulayıb.

O, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə təşkilata üzv ölkələrin başçıları ilə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentinin bir masada olmasına və Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Şamil Ayrım vurğulayıb ki, Azərbaycan və Türkiyə prezidentlərinin qardaşlığı və dostluğu ölkələrimiz arasında münasibətlərin yol xəritəsini müəyyənləşdirir. Azərbaycanın inkişafının və əldə etdiyi nailiyyətlərin Türkiyədə böyük qürur hissi doğurduğunu deyən qonaq ölkəmizin Qafqazın parlayan ulduzu olduğunu vurğulayıb.

Beynəlxalq münasibətlərdə Azərbaycanın artan roluna toxunan Şamil Ayrım bir sıra beynəlxalq təsisatlarda, xüsusilə də Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətimizə qarşı haqsızlığı və ədalətsizliyi qeyd edib.

Şamil Ayrım regionda davamlı sülhün təmin olunması istiqamətində Azərbaycanın atdığı addımları dəstəklədiklərini diqqətə çatdırdı.

Azərbaycanda keçiriləcək COP29-a hazırlıq işlərinin çox mükəmməl şəkildə aparıldığını vurğulayan qonaq bu beynəlxalq tədbirlə bağlı ölkəmizə uğurlar arzulayıb.

Azərbaycan-Türkiyə qardaşlığının və strateji müttəfiqliyinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı ölkələrimizin daim bir-birinin yanında olduqlarını qeyd edib.

Prezident İlham Əliyev regional vəziyyətə toxunaraq deyib ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır. Dövlətimizin başçısı vurğuladı ki, bunun üçün özünün artıq dəfələrlə qeyd etdiyi kimi, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır və konstitusiya dəyişdirilməlidir. Azərbaycan Prezidenti vurğulayıb ki, artıq keçmişin qalığı olan ATƏT-in Minsk Qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir. Dövlətimizin başçısı Minsk Qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını deyib. Çünki əgər münaqişə keçmişdə qalıbsa və Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ifadə edirsə, onda keçmişin qalığı olan Minsk Qrupunun saxlanmasına nə ehtiyac var?! Dövlətimizin başçısı deyib ki, görünür, Ermənistan sülh müqaviləsində və regionda davamlı sülhün əldə edilməsində maraqlı deyil. Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir.



Bir sıra Qərb təsisatlarında anti-Azərbaycan qüvvələrin ölkəmizə qarşı haqsız və ədalətsiz münasibətinə toxunan dövlətimizin başçısı vurğulayıb ki, Avropa Şurası Parlament Assambleyasında bizim əleyhimizə olan mövqe bilavasitə öz ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etməyimizlə əlaqədardır.

Prezident İlham Əliyev Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə davamlı şəkildə dəstək göstərdiyini qeyd edib, Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin də iştirak etməsinin önəminə toxunub.

Görüşdə Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun üzvləri çıxış edərək, ölkələrimizin daim bir-birinin yanında olduğunu, Azərbaycanın gücünün Türkiyənin, Türkiyənin gücünün isə Azərbaycanın olduğunu vurğulayıblar, Azərbaycan-Türkiyə qardaşlığının əhəmiyyətini qeyd ediblər.

# Fransa Durovu sındırsa... - şərh

## Politoloq: "O, bəlkə də Rusiyanın qəzəbinə gəlməmək üçün Parisə sığınmağa üstünlük verib"

**Fransada VK və Telegramın qurucusu, sahibkar Pavel Durovun həbsi ətrafında intriqa davam edir. Bunu siyasi motivlə izah edənlər getdikcə artmaqdadır. Bu xüsusda "Le Figaro" qəzeti yazıb ki, ölkə rəsmiləri Durovun Parisdə saxlanması işinin siyasi nəticələrindən qorxurlar. Ən son məlumata görə, Durov 5 milyon avro girov qarşılığında ölkəni tərk etməmək şərtilə və məhkəmə nəzarəti altında sərbəst buraxılıb. Pasportları əlindən alınıb. Durovu 10 ilədək həbs gözləyə bilər.**




"Durovun həbsi kiminsə məsləhəti ilə həyata keçirilib". Bunu isə Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. O, qərarın platformanın şifrləmə kodlarına çıxış əldə etmək üçün verildiyini vurğulayıb. "Durov açıq-aydın kiminsə məsləhəti ilə saxlanılıb. Onu dəhşətli cəza ilə hədələyiblər. Görünür, hansısa yolla şifrləmə kodlarına çıxış əldə etmək istəyirlər", - XİN başçısı qeyd edib.

Onun sözlərinə görə, bu cür addımlar Telegram sosial şəbəkəsinin həqiqətən etibarlı qorunmasından xəbər verir.

Rusiyada məlumatlı şəxslərdən sayılan filosof Aleksandr Duqin isə bildirib ki, Durov Bakıda vətəninə qayıtmaq üçün Vladimir Putinlə danışıqlar aparmağa cəhd edib, lakin sonra Fransaya uçub və orada həbs olunub.

"Durovun həbsi "ümumi müharibədə" neytrallığı qorumağın mümkünsüzlüyünün ən son sübutudur", - deyə Duqin bildirib. Onun fikrincə, artıq manevr vaxtı keçib və yalnız "biz və onlar" qalıb. Duqinə görə, "qlobalistlər" totalitar siyasətə keçiblər və Durov kimi informasiya şəbəkə sahibləri hücuma məruz qalır. O, həmçinin İlon Maskın da həbs olunacağına inanır.

Lavrov və Duqinin iddiaları nə dərəcədə əsaslıdır? Durov "sındırıla" bilərmi? O halda bölgəmizə, Rusiya-Ukrayna müharibəsinin gedişinə hansı təsirlər ola bilər? Fransanın əsas hədəfi nə?

**Siyasi şərhçi Heydər Oğuz "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Pavel Durovun həbsində qaranlıq məqamlar çoxdur:** "İddia olunur ki, Durov Rusiya prezidenti Vladimir Putinin Bakıya səfəri zamanı ölkəmizə gəlmiş və rus lideri ilə görüşmək istəmişdi. İddialara inansaq, Putin onun görüş tələbini geri çevirmiş və bundan sonra Durov öz şəxsi təyyarəsi ilə Parisə uçmuşdu. Parisdə təyyarədən düşən kimi fransız polisləri tərəfindən yaxalanıb. Ardınca da Fransa prokurorluğu Durovun niyə saxlanıldığı barədə məlumatlar paylaşmışdı. Həmin məlumatlarda iş adamı 12 cinayət maddəsində ittiham olunurdu. Durova qarşı irəli sürülən ittihamlar kifayət qədər ciddidir və onu uzunmüddətli həbs gözləyir. Həmin ittihamlardan yalnız biri məişət mənşəlidir. Digərləri isə əsasən kibercinayətkarlıq və siyasi ittihamlardır. Fransa prokurorluğu açıq şəkildə Durovu təhlükəsizlik və kəşfiyyat bölmələrinə ötürməməkdə günahlandırır".

**Heydər Oğuzun fikrincə, bu ittihamların açıq şəkildə bəyan edilməsi adi hadisə deyil:** "Çünki adətən ölkə təhlükəsizliyi ilə bağlı ittihamlar bu qədər açıq şəkildə bəyan olunmaz. Təhlükəsizlik orqanları bu araşdırmaları məxfi aparar və şübhələndikləri adamı gizli şəkildə əməkdaşlığa cəlb edərlər. Durova qarşı irəli sürülən ittihamlar arasında diqqəti başqa istiqamətə yayındıran iddialar da var. Məsələn, mütəşəkkil dəstə yaradıb uşaqların cinsi istismarı və narkotik vasitələrin əldə edilməsi kimi. İstənilən şəxsi uzunmüddətli həbs etmək üçün bu ittihamlar yetərli qədər əsas yaradır. Bununla kifayətlənməyib istintaq orqanının bir də "Durov bizimlə məxfi məlumatların əldə edilməsi istiqamətində əməkdaşlıqdan yayınır" mənasına gələn fikirləri ictimailəşdirməsi yalnız bir məntiqlə izah oluna bilər: Fransa kəşfiyyat orqanları Durovu uzun müddət gözaltında saxlamağa çalışır".

**H.Oğuzun fikrincə, istintaq orqanlarının məlumatından da o da anlaşılır ki, Durovun özü də barəsində irəli sürülən bu ittihamlardan xəbərdar olub:** "Əks halda, onun Parisə enən kimi saxlanılması və sonra bu cür rəsmi açıqlama yayılması başqa ehtimalı ağla gətirmir və istər-istəməz başqa sualları ağla gətirir: bu adam həbs oluna biləcəyini bildiyi halda niyə Bakıdan birbaşa Parisə gedirdi? Belə çıxır ki, özü də həbsində maraqlı imiş. Onun bu addımı Putinlə görüşü alınmayandan sonra atması da maraqlıdır. Şəxsən mənə belə gəlir ki, o, Putinlə bağışlanmasını rica etmək üçün görüşmək istəyirmiş. Putin isə onun xahişini geri çevirməklə faktiki onu bağışlamayacağı mesajını verib. Putinin bağışlamadığı şəxslərin taleyinin adətən sui-qəsdlərə uğramaq olduğunu nəzərə alsaq, Durovun bu görüş alınmayandan sonra dərhal Parisə uçması onu gözləyən müdhiş aqibətdən qaçmaq istəyi ilə bağlı ola bilər. Fransanın bu mənada onu uzunmüddətli gözaltında saxlamaq istəməsi də Durovun işinə yarayır. Ən azı bir müddət Fransa hüquq-mühafizə orqanlarının nəzarətində təhlükəsiz şəraitdə yaşaya bilər".

**Durovun Rusiya ilə yanaşı, Sent Kitts və Nevis, BƏƏ və Fransa vətəndaşlığı olduğunu xatırladan Heydər Oğuz onun niyə məhz Parisi seçməsini də can təhlükəsizliyi amili ilə əlaqələndrir:** "Çünki onun vətəndaşı olduğu digər ölkələr zəifdirlər. İstəsələr belə, Durovun təhlükəsizliyinə tam zəmanət verə bilməzlər. Fransa isə Sent Kitts, Nevis və BƏƏ ilə müqayisədə daha qüdrətli dövlətdir və Rusiyanın tələbi ilə öz vətəndaşını kiməsə verməz. Bir sözlə, Durov bəlkə də Rusiyanın qəzəbinə gəlməmək üçün Fransaya sığınmağa üstünlük verib. Bu mülahizə öz təsdiqini taparsa, Durovun hələ uzun müddət istintaq altında qalması mümkündür. Bu baxımdan mən onun ABŞ qlobalistlərinin qəzəbinə gəldiyinə inanmıram. Fikrimcə, rəsmi Parisin onu nəzarətdə saxlaması təhlükəsizliyi qorumaq məqsədi daşıyır".

❑ **Elşən MƏMMƏDƏLİYEV
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 155 (8529) 31 avqust 2024

# Polşada anti-Azərbaycan ruzigarı - neofaşist davranışda erməni izi, yoxsa...



## Sabir Rüstəmxanlı: “Burada erməni diasporunun müəyyən rolu var və...” XİN: “Polşada bu tendensiya ilə bağlı səfirliyin məlumatı var, ancaq...”

**Polşada daha bir azərbaycanlı polyaklar tərəfindən döyülüb. Musavat.com xəbər verir ki, döyülən azərbaycanlı Polşada təhsil alır, tələbədir.**

Hadisə ötən həftə (24 avqust) baş verib. Tələbə Bakıya gəlirmiş. O, yolüstü alış-veriş etmək üçün mağazaya gedib. Burada onu polyaklar təhqir ediblər. Daha sonra deyiblər ki, Polşa yalnız polyaklar üçündür. Bundan sonra onu döyüblər.

Qeyd edək ki, Polşada azərbaycanlılara qarşı bu cür hərəkətlər tez-tez edilir. Xüsusilə də orada yaşayan ermənilər tərəfindən soydaşlarımıza hücumlar olur, onları qətlə belə yetirirlər.

Polşada yaşayan, adının təhlükəsizlik baxımından çəkilməsini istəməyən həmyerlimiz Musavat.com-a deyib ki, Polşada hökumət qeyri-polyaklara qarşı aqressiv münasibətin aradan qalxması üçün real olaraq heç nə etmir, bundan başqa, Azərbaycan diasporunun da Polşada fəaliyyəti yox səviyyəsindədir. Həmyerlimiz bunu da qeyd edib ki, ölkədə azərbaycanlılara qarşı aqressiv münasibət olsa da, ermənilər və gürcülərə qarşı eyni aqressiya yoxdur.

Bu da faktdır ki, son illər özünü demokratik sayan bir çox Avropa ölkələrində islamofobiya və irqçilik, xüsusən də türkofobiya xeyli güclənib. Rəsmi Bakı Polşada baş qaldıran neofaşizmlə bağlı bu ölkəyə etiraz göndərəcəkmi, yaxud səfir XİN-ə çağırılacaqmı?

Qeyd edək ki, zaman-zaman Polşada erməni diasporunun azərbaycanlılara qarşı təxribatları olub, bəziləri hətta baş tutmayıb. Biz bunun 2020-ci ildə Azərbaycan Ordusunun 44 günlük Vətən savaşında əldə etdiyi qələbə zamanı daha çox şahidi olduq. Belə ki, 2020-ci ildə Polşanın Katovitse şəhərində vətənpərvər azərbaycanlı gənclərin təşəbbüsü ilə Teatr binasının qarşısında erməni təcavüzünü və Gəncə terrorunu pisləyən icazəli aksiya keçirilmişdi. Aksiyada soydaşlarımızla yanaşı milliyyətcə polyak olan şəhər sakinləri də iştirak edib və erməni terroruna yox deyiblər. Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, aksiya yekunlaşan anda ermənilər soydaşlarımıza qarşı təxribat törədib, onlara hücum çəkərək fiziki güc tətbiq ediblər. Yaranmış qarşıdurma zamanı ermənilər azərbaycanlılara pnevmatik silahlardan atəş açıblar. Azərbaycanlılara qarşı təxribat törədən ermənilərdən 3 nəfəri saxlanılıb.

Elə həmin il Polşanın paytaxtı Varşavada azərbaycanlılara qarşı təxribat törətməyə cəhd edən ermənilər yerli təhlükəsizlik xidməti tərəfindən saxlanılıb. Bundan əvvəl də Polşanın “Wojska Polskiego” stadionu yaxınlığında 25 yaşlı Ermənistan vətəndaşı Damir Sarkisyan və 30 yaşlı Rusiya vətəndaşı Saak Qriqoryan saxlanılmışdı. Yerli hüquq-mühafizə orqanları onların stadionda baş tutacaq futbol matçı zamanı azərbaycanlılara qarşı təxribat planlarını aşkarlayıb.

Bu təxribatın da arxasında erməni izi varmı?

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini bölüşüb:** “Son vaxtlar Polşaya güclü miqrant axını var. Ukraynadan, başqa ölkələrdən milyonlarla adam ora gedir. Ona görə də Polşada gələnlərə qarşı aqressiya başlayıb. Bu, eyni zamanda azərbaycanlılara da aiddir. Şübhəsiz, burada erməni diasporunun müəyyən rolu var. Amma mən düşünmürəm ki, azərbaycanlıların kütləvi şəkildə ölkədən çıxarılması, onlara qarşı zorakılıq tətbiq edilməsi ümumi dövlət prosesi, ya da cəmiyyətin ümumi rəyi olsun. Bunlar ayrı-ayrı epizodlardır. Bu da ölkənin yüklənməsi ilə bağlıdır. Həm də nəzərə alaq ki, Polşa Almaniya qədər, İngiltərə qədər bu işdə təcrübəsi olan və miqrantların ölkəyə gətirdiyi xeyri dərk edən ölkə deyil. Polşalıların korrupsiyasıya, əli əyriliyə nə qədər meylli olduqlarını biz bilirik. Orada həmişə bu amillər göz görəsi şəkildə az qala ənənəyə çevrilib. Ona görə bunun milli, dövlət qarşıdurmasına çevriləcəyini düşünmürəm”.

Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadəyə də müraciət etdik. O, məsələni araşdıraraq bizə dedi ki, Polşada bu tendensiya ilə bağlı səfirliyin məlumatı var. Ancaq konkret hadisə ilə bağlı vətəndaş səfirliyə müraciət etməyib.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**



## Fidan: “Aİ-də Türkiyənin quruma üzvlüyü ilə bağlı siyasi iradə yoxdur”

**Türkiyə Avropa İttifaqına (Aİ) üzv olmaqda qətiyyətlidir. “Report” xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan Lyublyanada Sloveniyanın xarici və Avropa işləri naziri Tanja Fajonla birlikdə keçirdiyi mətbuat konfransında deyib.**

O bildirib ki, rəsmi Ankara bu istiqamətdə səylərini davam etdirəcək: “Əsas problem odur ki, Aİ-də Türkiyənin üzvlüyü ilə bağlı siyasi iradə yoxdur. Bu, onların daxili məsələsidir. Amma əgər bu problem həllini taparsa, əlaqələrimiz inkişaf edə bilər”.



## Borrel: “Aİ Rusiya ilə müharibə istəmir, amma Ukraynaya dəstəyi davam etdirəcək”

**Ukraynaya Rusiya ərazisinə zərbə endirilməsinə icazə verilməsi bu ölkə ilə müharibə istədiyimiz anlamına gəlmir. Çünki bu çoxsaylı insan itkisinə səbəb ola bilər". APA-nın xəbərinə görə, bunu Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrel bildirib.**

O əlavə edib ki, hazırda Aİ-nin potensialı bilavasitə Ukraynaya yönəlib: “Dünən biz bununla bağlı uzun müzakirə apardıq. Müdafiə nazirləri əsasən Ukrayna məsələsi ətrafında fikir mübadiləsi aparırdılar. Biz həm siyasi, həm maliyyə və hərbi, həm də sənaye potensialımızı Ukraynaya dəstək üçün istifadə edirik. Heç kim hər bir Avropa dövlətinin ordusunun Ukraynaya dəstək üçün gördüyü tədbirləri və bu məqsədlə hansı məbləğdə vəsaitin sərf olunduğunu təsəvvür edə bilməz. Biz əldə olunan nəticələrdən məmnunuq. Böyük Britaniya Avropada sənaye potensialının möhkəmlənməsi üçün əlindən gələni edir. Bu məqsədlə avqustun sonunda biz Ukraynaya 1 milyon ədəd əvəzinə 700 min ədəd artilleriya mərmisi tədarük etmişik. Nə biz, nə də başqa dövlətlər Rusiya ilə müharibə istəyir. Çünki bu, çoxsaylı insan itkisinə səbəb ola bilər. Lakin biz Ukraynaya dəstəyi davam etdirəcəyik”.

# Paşinyanın 2027-ci il kələyi - İrəvan danışıqları tormozlayır...

## Qulamhüseyn Əlibəyli: "Ermənistan üçüncü müharibəyə hazırlanır, ona görə ərazi iddialarını saxlayacaqlar"

## Qabil Hüseynli: "Nikol indi referenduma getməyə qorxur və hakimiyyətindən narahatdır, amma bu, bizi az maraqlandırır"

**"Ermənistanda konstitusiya islahatları ilə bağlı referendumun 2027-ci ildə keçirilməsi planlaşdırılır". "Yeni Müsavat" yada salır ki, bunu avqustun 29-da Ermənistanın ədliyyə naziri Qriqor Minasyan deyib. O, hökumətin bu sənəd üzərində təcili yox, detallı işləyəcəyini bildirib. Nazir qeyd edib ki, kompleks sənəd üzərində ətraflı iş görülməlidir və ictimai müzakirələr aparılacaq.**



Onun sözlərinə görə, öncə mövcud ronstitusiyaya dəyişikliklər edilməsi, yoxsa yeni konstitusiyanın qəbulu ilə bağlı mübahisələr gedib, lakin sonda ikinci varianta üstünlük verilib. Nazir əlavə edib ki, komissiyanın işçi iclaslarında konstitusiyanın ilk 3 maddəsinin dəyişdirilməsi müzakirə olunmayıb, o cümlədən müstəqillik bəyannaməsinə istinadın konstitusiyadan çıxarılması məsələsinə baxılmayıb (harada ki, keçmiş Dağlıq Qarabağın Ermənistana "birləşdirildiyi" əksini tapıb). Belə çıxır, konstitusiya dəyişsə də, Azərbaycana ərazi iddiası qalacaq...

Halbuki Bakının əsas tələbi məhz həmin təxribatçı istinadla bağlıdır. Məlumdur ki, Bakı İrəvanla sülh müqaviləsinin yalnız Ermənistan Konstitusiyasının və digər qanunverici aktların beynəlxalq hüquqa uyğunlaşdırılacağı təqdirdə imzalana biləcəyini bildirib. Son olaraq bu barədə xarici işlər naziri Ceyhun Bayramov həftənin əvvəlində qardaş Türkiyəyə etdiyi səfər çərçivəsində bəyan edib. Yəni Azərbaycan bu xüsusda qanunsuz və ədalətsiz heç bir tələb irəli sürməyib və hər hansı güzəştə də getməyəcək. Çünki bu bizim "qırmızı xəttimizdir". Odur ki, əgər Ermənistanın yeni konstitusiyasında da Azərbaycana ərazi iddiası olacaqsa, onu dəyişməyə nə lüzum? Paşinyan hökuməti kimi aldadır?

Bütün hallarda yenə maraqlıdır, 2025 və ya 2026-cı il yox (həmin il Ermənistanda növbəti parlament seçkiləri keçiriləcək), məhz 2027-ci ildə referendum planlaşdırılması suallar doğurur. Yeni konstitusiyanın qəbulu üçün doğrudanmı 3 il vaxt lazımdır, yoxsa rəsmi İrəvan revanş üçün vaxt udmağı, işğal ordusu qurmağı hədəfləyib? Başqa yandan, ona qədər Azərbaycan və Türkiyə ilə faktiki düşmən kimi, təcrid və müharibə vəziyyətində olacaq "izqoy" Ermənistanın öz varlığını saxlaya biləcəyi də qeyri-müəyyəndir. Nəhayət, belə çıxır, 2027-ci ilədək İrəvanla sülh danışıqları aparmağın anlamı qalmır? Onu da qeyd edək ki, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb. Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb. Hazırda Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlətdaxili prosedurların keçirilməsinə başlayıb.

**Hüquqşünas Qulamhüseyn Əlibəyli** "Yeni Müsavat"a qeyd etdi ki, Ermənistan indiki vaxtda sülh müqaviləsi bağlamaq istəmir. Onun sözlərinə görə, ölkədə ictimai-siyasi gərginlik qalmaqdadır və belə şəraitdə Paşinyan sülh sənədini imzalamağı risk hesab edir. Q.Əlibəylinin fikrincə, ABŞ silahları Ermənistana yerləşdirilir, amerikalı hərbçilərlə erməni hərbçilər birgə təlimlər keçirir və belə görünür ki, siyasi-hərbi təxribatların olması üçün ərazi iddiaları qalmalıdır: "Ermənistan ümid edir ki, Qərbin bu dəstəyi bir neçə il sonra revanşa gətirib çıxara bilər". **Həmsöhbətimizin qənaətinə görə, əgər 2027-ci ildə qanunvericiliyə dəyişiklik zamanı Ermənistanın ərazi iddiaları yeni konstitusiyada da öz əksini tapacaqsa, o zaman heç vaxt sülh sazişi bağlanmayacaq:** "Və bunun da günahkarı Ermənistan olacaq. Azərbaycan tələblərini haqlı şəkildə irəli sürüb. Bu şərtlərdə Ermənistanın etiraz edəcəyi hal yoxdur. Azərbaycan əsaslı olaraq israr edir ki, qanunvericilik aktlarından Qarabağın Ermənistana birləşdirilməsi ideyası aradan qaldırılsın. Əgər bunu etməsələr, imzalanmış sülh sənədi adi bir kağız parçası olacaq və Ermənistan istənilən zaman onu poza biləcək. Ona görə biz tələblərimizi irəli sürəndə işimizi möhkəm tuturuq. Üstəlik, sülh Ermənistana daha çox lazımdır. İndi gedib özləri fikirləşsinlər".

**Professor Qabil Hüseynli referendumun 2027-ci ilə saxlanmasının siyasi səbəbləri olduğunu güman edir**: "Paşinyanın hakimiyyəti kövrəkdir və hər an laxlaya bilər. Bu gün Rusiya Nikolun cəzalandırılması yolunun axtarışındadır. Ermənistan Qərblə Rusiyanın növbəti toqquşma meydanına çevrilib. Burada proses daha ağrılı gedəcək, çünki Ermənistan Rusiyadan ən asılı ölkədir. Hətta Belarus ona baxanda daha az forpost sayıla bilər. Odur ki, Ermənistan rəhbərliyi hadisələrin həssas və hakimiyyət üçün riskli dönəmində referenduma getmək istəmədi. Əgər indi yeni konstitusiya qəbul etsəydi və orada Qarabağla bağlı iddialar aradan qaldırılsaydı, bundan rəqibləri ona qarşı istifadə edəcək, keşiş Baqratdan tutmuş qatil Sərkisyana qədər hamısı birləşib xalqı küçələrə çıxmağa çağıracaqdılar ki, Paşinyan guya milli maraqlara xəyanət edib, Qarabağdan imtina edib, guya satqındır, ölkənin konstitusiya quruluşunu darmadağın edib, guya erməni xalqının tarixi "məsələsi"ni oradan çıxarıb, xaindir və sair. Yəni bu mənada Paşinyan təhdidlərdən çəkindi və referendumu sonraya saxladı. Xatırlayırsınızsa, bir müddət əvvəl, hələ o zaman Xankəndidə separatizm mövcud idi, Paşinyan bəyan etmişdi ki, "mən elə bir sənədə qol çəkəcəyəm ki, ola bilsin, özüm üçün təhlükə olsun, amma erməni xalqının xilası üçün buna getməliyəm". Həmin vaxt Putin "Valday" klubunda sülh müqaviləsinin Vaşinqton variantı olduğunu bildirmişdi. O açıqlamadan sonra ermənilər meydanlara çıxdılar və Paşinyan geri çəkilməyə məcbur qaldı. İndi də oxşar mənzərə yaranmasından qorxduğu üçün cəmiyyəti mərhələli şəkildə sülhə hazırlayır. Lakin bizim onların nazı ilə oynamaq, daxili siyasətdəki problemlərinə görə səbr etmək öhdəliyimiz yoxdur".

**Q.Hüseynli hesab edir ki, Ermənistanın sülh sazişini yubatması onun öz siyasi-iqtisadi həyatına mənfi təsir edəcək:** "İkincisi, Paşinyanın rəqibləri ilə hansı problemlərinin olması bizi maraqlandırmır. Azərbaycan tələb edir ki, şifahi olaraq, o cümlədən Praqada imzalanmış sənədə əsasən Qarabağı bizim ərazi bütövlüyümüz çərçivəsində tanıdığın kimi, sülh sazişini də imzalamalısan, heç bir kitabında, müstəqillik bəyannaməndə bu barədə iddia qalmamalıdır. Əgər 2027-dək proses uzanacaqsa, hər dəfə gərginliklər, lokal toqquşmalar baş verməsi istisna deyil, üstəlik, sərhədin dəqiqləşdirilməsi prosesi uzanacaq və kimsə deyə bilməz ki, 3 il sonra nələr dəyişəcək. Üstəgəl, yeni konstitusiyada ərazi iddiaları saxlanacaqsa, Ermənistan bundan heç nə qazanmayacaq. Biz sülh olmadan da yaşaya bilərik, enerji məhsullarımız dünyaya çıxır, özünü blokadada görən Ermənistandır. Özləri götür-qoy eləsinlər, ərazi iddialarını sənədlərdə saxlamaq daha strateji məsələdir, yoxsa Ermənistanın dünyaya çıxması..."

**Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**




## XİN: "Ermənistan itkin düşənlərin yerini açıqlamaqdan imtina edir, beynəlxalq ictimaiyyət qəti addımlar atmalıdır"

**Azərbaycan Xarici İşlər Nazirliyi 30 avqust Beynəlxalq İtkinlər Günündə keçmiş işğal və münaqişə zamanı itkin düşmüş vətəndaşlarımızın taleyinə işıq salmağın zəruriliyini bir daha bəyan edib.**

APA xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

"Ərazilərimiz işğaldan azad edildikdən sonra çoxsaylı kütləvi məzarlıqların aşkarlanmasına baxmayaraq, Ermənistan itkin düşənlərin yerini açıqlamaqdan imtina edir. 4000-ə yaxın ailə onilliklərdir ki, yaxınlarını gözləyir və yaxınları haqqında məlumat almaq onların əsas hüququdur.

Beynəlxalq ictimaiyyət itkin düşmüş şəxslərin taleyini müəyyən etmək üçün qəti addımlar atmalıdır.

Azərbaycan itkin düşən azərbaycanlıların taleyinin müəyyənləşdirilməsi istiqamətində səylərini davam etdirəcək", - deyə məlumatda bildirilir.

Yeni MÜSAVAT
N 156 (8529) 31 avqust 2024



# Bölgəmizin manyakları

Zamin HACI
zaminhaci@gmail.com

**Şimal qonşumuzun nə yuvanın quşu olmasını anlamaq üçün bircə hadisəyə baxmaq yetərlidir. Orada 29 yaşlı bir İvanı (adı gerçəkdən İvandır, qəsdən belə yazmadım) 2020-ci ildə adam öldürdüyü üçün tutmuşdular. 14 il həbs verilibmiş. 2022-ci ildə Ukraynaya basqın ediləndə İvanı amnistiyaya salıb döyüşə göndəriblər. Məşhur "Vaqner" bandasının tərkibində dinc ukraynalıların başını kəsəndən sonra azadlığa çıxıb, 2023-cü ilin martında dönüb ana yurdu Kirov vilayətinə. Dərhal başlayıb yerli sakinləri balta və yaba ilə hədələməyə. Nəhayət cəmi 10 gün azadlıqda qalandan sonra 85 yaşlı bir qarını zorlayıb (!!! - hamısı Dostoyevski-Tolstoy irsinin nəticəsidir) və öldürüb. Bunu yenidən tutublar, 2024-ün iyulunda məhkəmə bu dəfə 23 il həbs cəzası kəsib. Sizə gülməli gələcək, ancaq rus hökuməti İvanı yenidən azadlığa buraxıb və cəbhəyə göndərib!**

Ümumiyyətlə, maraqlı regionda yaşayırıq. Əfqanıstanda əsl müsəlman olan Taliban qərdeşlərimizin hakimiyyətə gəlməsindən yəqin xəbərdarsınız. Yadınıza gələr, amerikalılar çəkilib gedəndə, prezident Əşrəf Qəni də biabırçı şəkildə, bir növ bizim Elçibəyvari formada hakimiyyəti qoyub qaçanda yazıq əfqanlar dəhşətə gəlmişdilər. Kabul hava limanında mühacirləri aparan son uçaqların təkərindən sallaşır, qanadına çıxırdılar, yıxılıb ölürdülər. O zaman biz bu dəhşətin səbəbini çox anlamırdıq. Fikirləşirdik, əşşi, Talibandır da, nə olsun radikaldırlar, əsas odur öz millətinizdir, öz pomidorum, öz musiqim, milli hökumət olacaq, okeanlar keçib gələn yankilər deyil, niyə gözgörəsi ölümə gedirsiniz və sairə.

Buyur, təzəlikcə Taliban növbəti islami qanun çıxarıb: qadınlar küçədə-filanda səslərini çıxara bilməz! Qadınları bütünlüklə bürüyüblər, işləmək və oxumaq onlara yasaqdır, indi isə hətta səs də çıxarmaq olmaz. Deyir qadın səsi biz kişiləri günaha vadar edir, ehtirasımız oyanır, şeytana uyuruq. (Bir ata sözümüz yadıma düşdü: "Üç səs sehrlidir, su səsi, qız səsi, qızıl səsi". Bunu Talibana məktubla göndərəcəm).

Bax, belə xəstə qaydaları görəndə Əfqanıstandan canları bahasına qaçmağa çalışan yazıqları anlayırsan. Qadının üzü, topuğu, saçı, səsi - hər şeyi bu manyaklarda ehtiras oyadırmış. Özü də yaşından asılı olmayaraq. 4-5 yaşdan 100 yaşacan. Sivil dünyada belə seksual manyakları təcrid edirlər, bu regionda isə hakimiyyət başına çıxırlar.

Şükür olsun, bizdə hələlik qadın səsi həram elan edilməmişdir, əksinə, efirdə əsasən qadınlar oxuyur, oynayır, camaata ağıl verirlər. Məktəblərdə müəllim-pedaqoq heyətimiz də 90-95 faiz zənənlərdən ibarətdir. Doğrusu, bu nə qədər əsl islamdır, mən bilmirəm. Bəlkə əsl islam Talibanın qurduğudur. Ya Ərəbistandakıdır. Bəlkə İrandadır? Nəsə, əsl islamı axtarırıq, tapanda cənnətə düşəcəyik.

Ancaq bizim özümüzün də orijinal nüsxələrimiz var. Bunlar əsasən kriminal sahələrdə özlərini göstərir. Təzəlikcə hərbi prokurorluq orduda yüksək vəzifəli növbəti zabiti içəri basmışdı. Adamın vəzifəsi Hərbi Hava Qüvvələrində yanacaq anbarının müdiri kimi bir zad, cinayəti isə həmin əmlakı talamaq olmuşdur. Təsəvvür elə: hərbi uçaqlarımızın yanacağını satırmış.

Başa düşürəm, təyyarə benzini adətən ən təmiz, yaxşı yanacaq sayılır, burada yeyinti də maraqlı və iştahaçan olmalıdır, ancaq yenə manyaklıqdır. Hərbi təyyarənin yanacağını əkişdirmək tankın yanacağını əkişdirməkdən çətin olmalıdır (mənə belə gəlir, bəlkə mən düz eləmirəm). Çünki tank getdiyi yerdə yanacaq kəm gəlsə, uzağı saxlayıb, düşüb qaçarsan. Ya da nə bilim, "xalastoy", dərə aşağı burax, yellənsin. Hərbi təyyarədə bunu necə edərsən? Yanacaq kəm olsa təyyarə düşəcək, ya da heç uçmayacaq.

İndi söz əlaqədar oxucularındır. Yazın görüm siz hansı manyakları tanıyırsınız.




# Paşinyanın vaxtı daralır - bunları etməsə...

## İki sentyabrda İrəvanda "artsax oyunu" qurulsa, Azərbaycan müvafiq addımlar atmalı olacaq

**Sentyabrın 2-də erməni radikal-revanşistlər cəhənnəmlik olmuş mifik, mövcud olmayan "artsax"ın "müstəqilik günü"nü qeyd etməyə hazırlaşırlar. Ancaq ilk dəfə olaraq, 30 ildən artıq işğalda saxladıqları Qarabağda yox, İrəvanda.**

Üsyankar keşiş Baqrat Qalstanyan artıq "qara gün"lə bağlı çağırış da edib. Həmin gün o, həmvətənlərini "artsaxın İrəvan nümayəndəliyi"nin önünə dəvət edib. Yəni məlum olur ki, Ermənistanda hələ də belə qanunsuz qurumun qondarma "nümayəndəliyi" fəaliyyət göstərir. Şübhəsiz ki, Ermənistan hakimiyyəti separatçılara belə bir şəraiti yaradıb. Hakimiyyətin izni olmadan separatçı tör-töküntüləri özlərinə İrəvanda ofis qura bilməzdilər.

Bəs Qarabağı Azərbaycanın tərkib hissəsi sayıb Bakı ilə sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edən Nikol Paşinyan bu qanunsuz qurumu niyə ləğv etmir? Ən önəmlisi, potensial müharibəyə gətirəcək Ermənistan Konstitusiyası beynəlxalq hüquqa, BMT Nizamnaməsinə nə vaxt uyğunlaşdırılacaq? Erməni baş nazir sülh nağıllarının sülhə yox, yeni müharibəyə apardığının fərqindədirmi? Yaxud nə üçün o, Bakının ATƏT-in Minsk Qrupunun rəsmən ləğvi ilə bağlı təklifinə də müqavimət göstərir? "Sülh istəyən" İrəvan MQ-nin ləğvini niyə istəmir? Bu da konstitusiya dəyişikliyi qədər çətindirmi?

Xatırladaq ki, Paşinyan vaxtilə "artsax institutları"nın İrəvanda mövcudluğunun Ermənistanın təhlükəsizliyi üçün təhdid yaratdığını bildirmişdi. Elə isə öz sözünü niyə tutmur? Ötən il sentyabrın 2-də isə o, Qarabağdakı separatçı ünsürlərə "müstəqillik təbriki" göndərmişdi. Sonrası bəlli - 19-20 sentyabr antiterror tədbirləri və Azərbaycanda erməni separatizminin kökünün kəsilməsi. Nikol sentyabrın 2-də, bu dəfə nə deyəcək, özünü necə aparacaq?

Analitiklər hesab edirlər ki, separatçılar İrəvanda "dirilməyi" qarşılarına məqsəd qoyublar və bu, sülh prosesinə əngəl yaradan amilə çevrilə bilər.

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın Qarabağda keçirdiyi antiterror əməliyyatından sonra separatçıların Bakının şərtlərini qəbul etməkdən başqa yolu yox idi. Əməliyyatlardan sonra separatçıların nümayəndələri Yevlaxda görüşə gəldilər, quldurbaşı Samvel Şahramanyan da bir "fərman" imzaladı. Hansı ki, həmin "sənədin" də bizim üçün hüquqi əhəmiyyəti yox idi: "Hər halda, bəyan etdilər ki, yanvarın 1-i 2024-cü ildən etibarən qondarma qurumun bütün "orqanlarını" buraxırlar. Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi, separatçılar ərazimizi tərk etdil, bəzilərini həbs etdik. Şahramanyan Ermənistana gedəndən az sonra verdiyi "fərman"ın etibarsız olduğunu elan etdi və gedib oturdu separatçı rejimin İrəvandakı "nümayəndəliyi"nin ofisində. Bu, həmin ofisdir ki, Qarabağ separatçıların işğalı altında olduğu zamanlarda da "nümayəndəlik" adı ilə fəaliyyət göstərirdi və Azərbaycana qarşı vaxtaşırı bəyanatlar səsləndirirdi, Azərbaycana qarşı toplantılar keçirilirdi, ərazi iddiaları təkrarlanırdı. Lakin Samvel Şahramanyan və rejimin digər quldurbaşıları İrəvana qaçandan sonra həmin ofisi qondarma "artsaxın mühacir hökumət binası" kimi təqdim etməyə başladılar. Nikol Paşinyan və digər hakimiyyət rəsmiləri bir neçə dəfə həmin bədnam ofisin fəaliyyətinin zərərli olduğu kimi fikirlər səsləndirsələr də oranı bağlamadılar. Nikol Paşinyan istəsəydi, o quldur yuvasını tamamilə qapadıb qapısına qıfıl vurdurardı. Ancaq bunu etmədi. Faktiki olaraq separatçılara qucaq açmaq yolunu seçdi".

**Politoloq düşünür ki, separatçılar da son zamanlar Paşinyanın onlara şərait yaratdığına əmin olduqları üçün aktivləşməyə başladılar**: "Hətta o qədər arxayınlaşıblar ki, 2 sentyabrda "artsax nümayəndəliyi"nin qarşısında böyük tədbir keçirmək istəyirlər. Nikol Paşinyan onların bu fitnəkarlığının qarşısını almayacaqsa, bu o demək olacaq ki, Paşinyan qətiyyən sülh istəmir, Azərbaycanla sülh sazişi imzalamaq niyyətində deyil və sülh oyunu oynamaqla məşğuldur. Çünki Ermənistan Konstitusiyasındakı Azərbaycana qarşı ərazi iddialarının hələ də qalması nə qədər Azərbaycanla Ermənistan arasında sülh sazişinə əngəldirsə, bir o qədər də İrəvanda Qarabağdan getmiş separatçı rejimin ünsürlərinin fəaliyyətinə şərait yaradılması, onların fəaliyyətinin qadağan edilməməsi problem yaradır və yaradacaq. Paşinyan bunu yaxşı bilir və bilərəkdən də separatçılara şərait yaradır. Deməli, sülh müqaviləsini imzalamaq niyyətindən uzaqdır. Hətta istisna deyil ki, Paşinyan 2 sentyabrda separatçı rejimin tör-töküntülərinin xoşuna gələn fikirlər də səsləndirə bilər. Belə edəcəksə, Azərbaycana ona sərt xəbərdarlıq etməlidir və Azərbaycana qarşı cinayətlər törətmiş quldurlarla bağlı tədbir görülməsi tələbi irəli sürülməlidir".

**Politoloq qeyd etdi ki, Azərbaycanın mövqeyi bəllidir - Ermənistanda ölkəmizə qarşı ərazi iddialarına birdəfəlik son qoyulmalıdır:** "İrəvan sülh istəyirsə, müqavilədə əsas bənd ölkələrin bir-birinin ərazi bütövlüyünü tanıması və bir-birinə qarşı ərazi iddiası irəli sürməmək öhdəliyinin götürülməsi olacaq. Yox, əgər İrəvanda bir qrup şəxs Azərbaycan ərazilərinə iddiasını davam etdirirsə, o zaman bölgədə nə sülh olacaq, nə də əməkdaşlıq. Ermənistanla Azərbaycan arasında hazırda sülh gündəliyinə, sülh sazişinin razılaşdırılmasına ən ciddi hüquqi maneələrdən biri məhz Ermənistan Konstitusiyasının preambula hissəsində istinad olunan Ermənistanın Müstəqillik Bəyannaməsindəki Azərbaycana ərazi iddialarıdır. Digər bir maneə isə Azərbaycana qarşı cinayətlər törətmiş və artıq mövcud olmayan separatçı rejimin tör-tökünütlərinin Ermənistanda fəaliyyətinə şərait yaradılmasıdır. Ermənistan bu iki problemi mütləq aradan qaldırmalıdır. Əks halda, sülh olmayacaq və gec-tez bu vəziyyətdən Ermənistan dövləti və xalqı böyük ziyan görəcək. Azərbaycana qarşı yeni təxribat planları qurulsa, şübhəsiz, artıq Azərbaycanın legitim addımlar atmaq zərurəti yaranacaq. Vaxt gedir, Paşinyan nə qədər gec deyil qeyd edilən məsələləri həll etməlidir. Əks halda, yenə uduzan tərəf olacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (8529) 31 avqust 2024

# Qərbi azərbaycanlılar üçün Kosovo variantı - ilginc gediş

## Azərbaycanlıların Qərbi Azərbaycana ləyaqətli qayıdışının qarşısını almaq istəyən revanşistlərin sərsəm iddialarına sərt reaksiya



**Qərbi Azərbaycandan, öz dədə-baba yurdlarından didərgin salınan 300 minə yaxın azərbaycanlının ləyaqətli şəkildə yurd-yuvalarına qayıtması məsələsi Azərbaycan dövlətinin siyasətinin prioritetləri sırasındadır. Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının qərargahında qurumun İdarə Heyəti ilə görüşərkən qəti mövqeyini bəyan etmiş və sonrakı dönəmdə Qərbi Azərbaycan Konsepsiyasının qəbulu ilə faktiki olaraq bu məsələ ilə bağlı güzəştsiz siyasətin sərgilənəcəyi bir daha ortaya qoyulmuşdu.**

Dövlət başçımız Qərbi Azərbaycan İcması üçün məhz vaxtilə Qarabağdan məcburi köçkün düşənlərlə bağlı yaradılmış qurumun yerləşdiyi ünvanın seçilməsinin təsadüf olmadığını vurğulamışdı. Demişdi ki, "bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah". Düşməni və havadarlarını kifayət qədər narahat edən mövqedir, amma gec-gez baş verəcək, çünki həm İlahi ədalət, həm də beynəlxalq hüquq bunu tələb edir.

Bunun qarşılığında Qarabağ erməniləri ilə bağlı iddiaların dövriyyəyə buraxılması da məkrli niyyətdən xəbər verir. Ancaq ermənilər anlamaq istəmirlər ki, Qərbi Azərbaycan azərbaycanlılar üçün Vətənin bir parçasıdır, ancaq Azərbaycanın təkliflərinə rəğmən, Qarabağdan çıxıb gedən bir ovuc erməni yad torpaqda qalmağın mənasız olduğunu anladı, onlar buraya gəlmə olduqlarını davranışları ilə təsdiqlədilər. İşğal dövründə darmadağın etdikləri, inkişafına çalışmadıqları, hətta özlərinə normal ev-eşik tikmədikləri Azərbaycan torpağını abadlaşdırmaqdansa, əllərindən gələn pislikləri etmişdilər. Belə olduğu halda, öz istəkləri ilə Qarabağdan köçən ermənilərin geri qayıdışı ilə bağlı sərsəm iddiaların dövriyyəyə atılması həm də öləziməkdə olan separatizm xülyalarını yenidən gündəmə gətirmək, xüsusilə də sentyabrın ilk günlərində "miatsum" xəstəliyinə yoluxmuş canilərə əlavə oksigen vermək niyyəti güdür heç şübhəsiz.

Belə sərsəm təşəbbüslə çıxış edənlərdən biri, Ermənistanın revanşist sabiq xarici işlər naziri Vardan Oskanyan yenə xortlayıb. Xortlayan kimi də ağzını açıb növbəti dəfə Azərbaycan tərəfə hürüb, "artsax" xülyasını reallıq kimi yerli və beynəlxalq ictimai rəyə sırımağa cəhd edib. Üzdəniraq "Artsax xalqının kollektiv repatriasiyası (dönüş - red.) komitəsi" adlı təxribatçı qurumun koordinatoru olan V.Oskanyan öncə iddia edib ki, guya beynəlxalq birlik ermənilərin Qarabağa qayıdışı məsələsini müzakirə etməyə hazır olduğunu nümayiş etdirir: "Lakin bu məsələ irəliləməsi üçün danışıqların gündəliyinə daxil edilməlidir. Ermənistan ictimaiyyəti və "artsax"dan olan qaçqınlar hakimiyyətə təzyiq göstərməli, qayıdış məsələsinin (Bakı ilə - red.) danışıqların gündəliyinə salınmasını tələb etməlidir. Bu, özlüyündə Ermənistan üçün heç bir təhlükə ehtiva etmir. Mən buna əminəm və sübut edə bilərəm". **Sabiq nazir ardınca siyasi iştahasını bir az da artıraraq, "artsax sakinlərinin öz vətənlərinə hansı statusla qayıda biləcəyinə" aydınlıq gətirib:** "Bu sual bizim görüşlərimiz zamanı tez-tez səslənir və mən həmişə cavab verirəm ki, qayıdış kollektiv və beynəlxalq təhlükəsizlik təminatları altında olmalıdır. Təbii ki, bizdən bunu necə təsəvvür etdiyimiz də soruşulur. Biz isə Kosovonun nümunəsini misal çəkirik". **Onun sözlərinə görə, Kosovoda olduğu kimi, Qarabağda da "artsax və BMT nümayəndələrinin iştirakı ilə birgə administrasiya" yaradılmalıdır:** "Bu, minimum 3-5 il müddətinə keçid dövrü üçün idarəetmə ola bilər. Həmin müddətdə administrasiya Avropa Parlamentinin qəbul etdiyi qətnamənin tələb etdiyi kimi, Azərbaycanla danışıqlar aparıb "artsax"ın gələcək statusunu müəyyənləşdirməli, BMT-nin sülhməramlı qüvvələri "artsax"a yerləşdirilməlidir", - deyə Oskanyan sərsəmləyib. Bu zaman unudub ki, bayırda 2024-cü ildir. Yəni bir ildir Qarabağda erməni separatizminin kökü kəsilib. İndi ermənilərin qayıdışı ən yaxşı halda "güzgü prinsipi" üzrə qərbi azərbaycanlıların Ermənistana qayıdışı məsələsi ilə paralel qoyulur. O da Qarabağda yaşamış erməni sakinlərin Azərbaycan vətəndaşlığını qəbul edəcəyi halda. Başqa sözlə, niyə soydaşlarımız üçün də Kosova variantı olmasın? Yoxsa ermənilər "köynəkdə" doğulub deyə, onlara xüsusi imtiyaz tanınmalıdır? Doğrudanmı bu Suriya ermənisi xəyal edir ki, Laçın yolu işğal dövründəki kimi hələ də "karvansara qapısı" olaraq qalır və rəsmi Bakı Azərbaycanın Konstitusiyasını və bayrağını saymayan bir ovuc quldur-separatçını təzədən Qarabağda yerləşdirməyə razı olar? Bu zat, görəsən, hansı planetdə yaşayır? Başqa yandan, Azərbaycan Avropa İttifaqının üzvü deyilsə, ermənipərəst Avropa Parlamentinin qərəzli qərarlarının Bakı üçün hansı hüquqi dəyəri və ya məcburi qüvvəsi ola bilər?

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında Azərbaycanın yaratdığı yeni reallıqlardan danışdı:** "Qarabağ məsələsi bitib, Azərbaycan ərazi bütövlüyünü təmin edib, Qarabağ və Şərqi Zəngəzur üzərində suverenlik bərpa edilib. Bunu hətta Azərbaycana düşmən kəsilən mərkəzlərin tamamı, o cümlədən Ermənistan hakimiyyəti və cəmiyyəti qəbul etsə də, Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan hələ də müqavimət göstərməyə çalışır. Bu şəxs xəstə təfəkkürə malikdir. 1990-cı illərin sonunda ondan İrəvanda müsahibə almışam və bu şəxsin reallığı necə inkar etdiyini o zaman özüm üçün müəyyənləşdirmişəm. Vardan Oskanyan hazırda oyundankənar vəziyyətdə qalıb, nə hakimiyyətdə, nə də müxalifətdə təmsil olunub. O, sadəcə, öz varlığını göstərmək üçün "Artsax xalqının kollektiv dönüş komitəsi" adlı təxribatçı qurum yaradıb". **E.Şahinoğlu əminliklə bildirdi ki, xəstə düşüncəli sabiq nazirin bu fəaliyyətinə Ermənistanın özündə diqqət yoxdur:** "Çünki erməni cəmiyyəti yaxşı anlayır ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşlığını qəbul etmədən bölgəyə qayıda bilməzlər. Vardanyan isə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan bu haqlı tələbini inkar etməyə çalışır. Oskanyan Qarabağ mövzusunun danışıqlar predmeti olmasına çalışsa da, Ermənistanın baş naziri Nikol Paşinyan mövcud reallıqları anlayaraq müzakirələrin hər iki dövlətin bir-birinin ərazi bütövlüyünü tanıması şəklində aparılmasına tərəfdardır. Vardan Oskanyan öz ölkəsində nəticə əldə etmədiyini anlayaraq Qətb ölkələrində sülənməyə başlayıb. O, xarici ölkələrdəki görüşlərində Kosovo modelinin Qarabağa tətbiqi üzərində "təkliflər" verir. Başdan-ayağa absurd təklifdir. Birincisi, Kosovo modeli ermənilər üçün bu qədər cəlbedici təklifdirsə, niyə İrəvan bu vaxta qədər Kosovonun müstəqilliyini tanımayıb? İkincisi, Kosovo həm də ona görə nümunə ola bilməz ki, bu bölgənin yüksək muxtariyyəti yoxdur. Kosova dövlətdir və bu dövləti tanıyanların sayı çoxdur. Oskanyanın xarici ölkələrdə nə danışmasından asılı olmayaraq, onu qəbul edənlər keçmiş diplomatı dinləməklə kifayətlənirlər".

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı isə bildirdi ki, Vardan Oskanyan kimi sabiq separatizm dəstəkçiləri yenidən siyasi həyata girmək üçün bu metodu seçiblər:** "Qarabağa ermənilərin dönüşü məsələsini cəlbedici siyasi vasitə kimi bu məqsədlə istifadə etmək istəyirlər. Kosovo variantı da bu şəxsin "yaradıcılığı"dır. Xalq arasında belə bir ümid yaratmağa çalışılır ki, Kosovo albanları da ölkələrindən çıxmışdılar, amma dövlət statusu ilə döndülər. Qarabağ erməniləri də belə edə bilərlər. Amma həmin toplumla Kosovo albanlarının fərqli statusu olduğunu bu nadan unudur. Qarabağ Azərbaycan torpağıdır və burada başqa qanunlar işləmir, oradan çıxan erməni o halda dönə bilər ki, Azərbaycan vətəndaşı olsun və Qarabağda törədilən cinayətlərdə əli olmasın". **Q.Çaxmaqlı qeyd etdi ki, buradan gedən ermənilərin çoxu cinayətkardır, 30 il ərzində bulaşmadıqları cinayət qalmayıb:** "Bakı bunların heç birinə göz yummayacaq və Qarabağ artıq elə bir ərazi deyil ki, kimsə əlini-qolunu sallayıb buraya girib-çıxsın. Mən Qarabağ ermənilərinin dönüş məsələsini heç vaxt qərbi azərbaycanlıların qayıdışı ilə eyniləşdirmirəm. Bu, tamamilə başqa prosesdir. Qarabağ erməniləri ilə bağlı Ermənistanda hansısa qurumun yaradılması separatizmin xortlamasıdır, Azərbaycana qarşı revanşizmin təzahürüdür. Adekvat cavabı olmalıdır. Ermənistan hakimiyyəti buna imkan verirsə, məsuliyyəti də o daşımalıdır".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (8529) 31 avqust 2024

# Azərbaycanda növbəti dollar ajiotajı - süni, yoxsa...

## Mərkəzi Bank "təhlükəli deyil" deyir - ekspert rəyi



**Azərbaycanda valyutaya tələbin artması prosesi davam edir. Mərkəzi Bankın məlumatına əsasən bu ilin yanvar-avqust aylarında tənzimləyicinin Dövlət Neft Fondu (ARDNF) ilə birlikdə keçirdiyi valyuta hərraclarında 5 milyard 074,2 milyon ABŞ dolları məbləğində satış olub. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur.**

Yalnız avqust ayında valyuta satışının məbləği 649,1 milyon ABŞ dolları təşkil edib. Bu isə 1 il əvvəllə müqayisədə 43,6 faiz çoxdur.

Qeyd edək ki, dollara tələbin artması ötən ilin payızından başlayan proses olmaqla, artan dinamika ilə davam edir. Bu artım fonunda avqust ayının ortalarından bəzi banklar dollar satışından müxtəlif bəhanələrlə imtina etməyə başlayıblar. Bu isə əhali arasında devalvasiya olacağına dair böyük təşvişin yaranmasına səbəb olur. **Azərbaycan Mərkəzi Bankının (AMB) Maliyyə bazarlarında əməliyyatlar departamentinin direktoru Elrad Seydiyev** "Report"a müsahibəsində bildirib ki, AMB tərəfindən banklara dollar satışının dayandırılması, ümumilikdə dollar satışında məhdudiyyətlərin mövcudluğu kimi hallarla bağlı son günlərdə yayımlanan xəbərlər reallığı əks etdirmir: "Bu növ məsələlərin ictimaiyyət arasında çaşqınlığa səbəb olma ehtimalını nəzərə alaraq mətbuat nümayəndələrinə Mərkəzi Banka müraciət edərək müvafiq məqamlara dair zəruri dəqiqləşdirmə aparmalarını tövsiyə edirik. Kommunikasiyaya və dialoqa açıq bir qurum kimi Mərkəzi Bank tərəfindən KİV nümayəndələrindən daxil olan sorğular müntəzəm şəkildə cavablandırılır".

**E.Seydiyevin sözlərinə görə, 2024-cü ilin ötən dövründə Mərkəzi Bank tərəfindən təşkil edilən bütün valyuta hərraclarında tələb təmin edilib:** "Valyutaya tələbin artmasına başlıca səbəb qeyri-neft-qaz idxalının artmasıdır ki, bu da investisiya aktivliyinin yüksəlməsi və dövlət xərclərinin genişlənməsi fonunda baş verir. Bu ilin ilk 7 ayında daxili mənbələrdən iqtisadiyyata yönəldilən investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 10,7 faiz artıb. Bu dövrdə dövlət büdcəsinin xərcləri 10,4 faiz artıb. O cümlədən dövlətin birbaşa valyuta komponentli xərcləri (xarici borc və s.) ötən ilin eyni dövrü ilə müqayisədə artıb. Bütün bunlar idxal üzrə qabaqcadan ödənişlərin artması ilə müşayiət olunub. Eyni zamanda cari ildə hökumət tərəfindən emissiya edilmiş avrobondun geri alışının həyata keçirilməsi (0,9 milyard ABŞ dolları), ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən ticarət kreditləri üzrə öhdəliklərin azaldılması (0,8 milyard ABŞ dolları) valyutaya tələbin 2023-cü illə müqayisədə artmasına gətirib çıxarıb. Qeyd edək ki, tədiyə balansının kapitalın hərəkəti hesabında baş verən bu struktur dəyişiklikləri, o cümlədən birbaşa xarici dövlət borcunun əhəmiyyətli azalması perspektivdə valyutaya tələbi azaldacaq amillərdir.

Ümumilikdə bildiririk ki, valyuta bazarı profisitli tədiyə balansı şəraitində fəaliyyət göstərir. Tədiyə balansının cari əməliyyatlar hesabının ümumi daxili məhsula nisbəti I rübdə 10,1 faiz olub. Ticarət balansında 2024-cü ilin ilk 7 ayında 5,3 milyard ABŞ dolları məbləğində profisit formalaşıb. Proqnozlara əsasən 2024-cü ilin yekunu üzrə də cari əməliyyatlar hesabının profisitli olaraq qalacağı gözlənilir".

**"Dünya enerji bazarında neft qiymətinin ucuzlaşması manatın dollara nisbətdə məzənnəsinin dəyişilməsinə əsas verəcəkmi? Sualı cavablandıran AMB rəsmisi bildirib ki, enerjidaşıyıcılarının qiymətlərinin dəyişimi Azərbaycanın valyuta bazarına birbaşa təsir etmir:** "Valyuta bazarındakı vəziyyət tədiyə balansının vəziyyəti, dövlətin və özəl sektorun valyuta üzrə tələb-təklifi, məzənnə ilə bağlı gözləntilər kimi amillərdən təsirlənir. 2024-cü ilin dövlət büdcəsinin parametrlərindən göründüyü kimi, fiskal məqsədlərlə xərclənən neft gəlirləri valyuta bazarında tarazlığı dəstəkləyir.

Əlavə olaraq bildiririk ki, Mərkəzi Bank tərəfindən son 2 il ərzində faiz dəhlizinin təsir imkanlarının daha da gücləndirilməsi istiqamətində bir sıra mühüm təşəbbüslər həyata keçirilib ki, bu imkanlardan da zəruri hallarda dəstəkləyici tədbirlər kimi istifadə edilə bilər. Ümumilikdə qeyd edirik ki, hazırda manatın məzənnəsinə fundamental təhdid yaradacaq hallar müşahidə olunmur".

Məlumat üçün qeyd edək ki, Dövlət Gömrük Komitəsinin açıqladığı statistikaya əsasən bu ilin yanvar-iyul aylarında Azərbaycan xarici ölkələrlə 26 milyard 892,121 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 11,3 faiz azdır. Xarici ticarət dövriyyəsinin 16 milyard 99 milyon ABŞ dolları ixracın, 10 milyard 793 milyon ABŞ dolları isə idxalın payına düşüb. Nəticədə son 1 ildə ixrac 22,5 faiz azalıb, idxal isə 12,9 faiz artıb. Yeddi ayın yekununda xarici ticarətdə 5 milyard 306 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 2,1 dəfə azdır.

Gömrük statistikası göstərir ki, ötən ilin yeddi ayı ilə müqayisədə bu ilin yanvar-iyulunda mal və məhsul idxalı üçün Azərbaycandan xaricə 1 milyard 236 milyon dollar çox valyuta çıxarılıb. Bu, xarici ticarətin iştirakçısı olan fiziki və hüquqi şəxslərin artan tələbatıdır.

Onlarla bərabər əhalinin dollar tələbində də artım var. Ötən payızdan başlayaraq əhalinin banklardan dollar alışlarında da artım müşahidə olunur. AMB-nin məlumatına görə, 2024-cü ilin ilk beş ayında banklar əhalidən 636.9 milyon dollar alıb, 1 milyard 252.3 milyon dollar satıblar. Əhaliyə satılan nağd dolların artımı ən çox cari ilin fevralında olub - 499.6 milyon dollar. Göründüyü kimi, beş ayda əhali banklardan onlara satdığından 2 dəfə çox dollar alıb.

Əhalinin dollar üçün banklara daha çox üz tutmasında ölkəyə xaricdən daxil olan vəsaitlərin azalması da mühüm rol oynayır. Belə ki, 2024-cü ilin yanvar-iyun aylarında Azərbaycanda banklara sürətli pul köçürmə sistemləri vasitəsilə 893.1 milyon manat vəsait daxil olub. Azərbaycanda banklardan xaricə göndərilən vəsaitin həcmi isə 259.3 milyon manat təşkil edib. Mərkəzi Bankın məlumatına görə, keçən ilin yanvar-iyun aylarına nisbətən sürətli pul köçürmə sistemləri vasitəsilə banklara daxil olan vəsaitin həcmi 31.3 faiz və ya 406.8 milyon manat, banklardan xaricə köçürmələr isə 19 faiz və ya 61 milyon manat azalıb.

Nəzərə çatdıraq ki, ötən ilin I yarısında Azərbaycanda banklara sürətli pul köçürmə sistemləri vasitəsilə 1 milyard 299.9 milyon manat daxil olub. Banklardan xaricə göndərilən vəsaitin həcmi isə 320.3 milyon manat təşkil edib.

Göründüyü kimi, əhalinin banklardan dollar istəyinin artması xaricdən əsasən dollar formasında pulköçürmələrin azalması fonunda baş verir. Belə görünür ki, əhali hətta banklardakı əmanətlərinin bir hissəsini də geri çəkərək dollar alışına yönəldib. Belə ki, AMB-nin məlumatına görə, 2024-cü il avqust ayının 1-nə Azərbaycanda fiziki və hüquqi şəxslərin ümumi depozit portfeli (maliyyə institutları istisna olmaqla) 34 milyard 381.3 milyon manat təşkil edib. Bu göstəricinin həcmi iyul ayının 1-i ilə müqayisədə 2.3 faiz və ya 803.7 milyon manat azalıb.

Ötən ay fiziki şəxslərin depozitləri əvvəlki ayla müqayisədə 219.3 milyon manat azalaraq 13 milyard 661 milyon manat, hüquqi şəxslərin depozitləri isə 584.5 milyon manat azalaraq 20 milyard 720.3 milyon manat təşkil edib.

Xatırladaq ki, mart ayında da əhali banklardan iri həcmdə vəsait çəkmişdi. O zaman bir ayda əhali banklardan 135 milyon manatdan çox depozit geri çəkmişdi.

Maraqlıdır ki, manatla depozit faizlərinin yüksəlməsi də əhalinin əmanətlərini banklardan çəkməsinin qarşısını almayıb. Belə ki, son aylarda aparıcı bankların hamısında manatla depozit faizləri qaldırılıb. Hazırda aparıcı banklarda əmanətlər üzrə faiz dərəcəsi 11 faiz və daha çox təşkil edir. Əmanət faizlərinin artması bankların əhaliyə faiz ödənişlərində yüksəlişə gətirib çıxarıb. Yanvar-iyun aylarında banklar əhaliyə 407 milyon manat depozit faizi ödəyib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 118,5 milyon manat və ya 41 faiz çoxdur.

Ölkədə dollara tələbi artıran daha bir amil xaricə səfərlərin çoxalmasıdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı 23,1 faiz artaraq 1 milyon 223,0 min nəfər olub. Bu zaman İrana gedən Azərbaycan vətəndaşlarının sayı 37,8 faiz, Türkiyəyə gedənlərin sayı 19,3 faiz, Rusiyaya gedənlərin sayı 16,2 faiz, Gürcüstana gedənlərin sayı 15,9 faiz artıb.

Dollara tələbin artması fonunda onun ölkəyə axınını təmin edən neft-qaz ixracının azalması, bundan gəlirin azalması hələlik ölkədə makroiqtisadi sabitliyə ciddi təhdid formalaşdırmır. Bu ilin yeddi ayında ölkəyə bu mənbədən 14 milyard 224 milyon 266.44 min dolları daxil olub. Bu, ötən ilin eyni dövrünə nəzərən 34,2 faiz azalma deməkdir: həmin dövrdə neft-qaz ixracından Azərbaycan 18 milyard 770 milyon 50,1 min dollar qazanmışdı. Lakin xarici ticarət profisitinin sürətlə azalması, qeyri-neft ixracının isə artmaması yaxın gələcəkdə ciddi təhdidlər formalaşdıra bilər...

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (8529) 31 avqust 2024

# Məktəblərdə inkişafa mane olan “Kurtlar vadisi” metodologiyası - rəhbərliyi vaxtaşırı əvəzləmək təklifi

## **İlqar Orucov:** “Məktəbə şəxsi müəssisəsi kimi baxan quldur təfəkkürlü adamların olması qəbuledilməzdir”

## **Rövşən Nəcəfov:** “Məktəbdə rəhbərliklə müəllimlərin arasında uçurumun olması uşaqların şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərir”

**Orta məktəblərdə tədrisin, təlim-tərbiyənin, təhsilin səviyyəsinin inkişafına mane olan başlıca amil məktəb rəhbərliyində təmsil olunanlar - direktor müavinləri, təşkilatçılar, həmkarlar və s. tərəfindən qruplaşmalar yaradılmasıdır. Müşahidələr göstərir ki, əksər orta təhsil müəssisələrində belə durum mövcuddur.**

Bir çox məktəblərdə hətta “Kurtlar Vadisi” metodologiyası hökm sürür. Onların yaratdığı şəbəkələr, konfliktlər səbəbindən məktəbi dirçəltmək istəyən direktor olanda belə, buna nail olmaq mümkün olmur. Bəzən bu şəbəkələr məktəbə yeni gələn direktorları onlara təzim etməyə də məcbur edirlər! Əks təqdirdə, ya şantaj edirlər, ya sabotaj...

Uşaqlar bu mühitdə çox pis nümunə götürürlər. Səmimi, uşaqların təhsili üçün can qoyan sıravi müəllimlər isə ruhdan salınır, yaxud müxtəlif oyunlara cəlb olunurlar.

Bəs çıxış yolu nədir? Ekspertlər bildirir ki, bunun üçün qısa müddətdə effekt verə biləcək sadə bir yol var - müavinləri, digər rəhbər şəxsləri 3, maksimum 5 ildən sonra rotasiya qaydasında yaxınlıqdakı digər məktəblərlə əvəzləmək.

Bu taktika hüquq-mühafizə orqanlarında çoxdan tətbiq olunur və özünü də tam doğruldur. Ekspertlər təklif edir ki, nazir Emin Əmrullayev bununla bağlı müvafiq addımlar atmalıdır.



**Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini bölüşüb:** “Məktəbin idarəedilməsində, təhsilin keyfiyyətində əməkdaşlar arasındakı işgüzar münasibətlərin düzgün təşkil olunmasından tutmuş, məktəb mühitinin sağlam olmasına qədər ən vacib faktorlardan biri məktəb idarəetməsinə cavabdeh olan rəhbər heyətin düzgün formalaşması və yerində olmasıdır. Mən ümumilikdə məktəb idarəetməsindəki şəxslərin heç də hamısının yerində olmamasının fərqindəyəm. Bilirəm ki, məktəb idarəetməsinə cavabdeh şəxslərlə bağlı kifayət qədər problemlər mövcuddur. Əvvəllər məktəb rəhbərliyi nə cür formalaşırdı, hansı şərtlərlə məktəblərə təyinat alırdılar, bu məlum idi. Təəssüf ki, burada xeyli neqativlər mövcud idi. Eyni zamanda məktəb rəhbərliyinin təyinatında xüsusilə yerli icra hakimiyyəti orqanları prosesi həyata keçirirdilər. İnsafən deyim ki, yaxşı məktəb rəhbərləri də olub, çox təəssüf edirəm ki, onlar indi yoxdur. Son illər məktəb direktorlarının seçimi ilə bağlı Elm və Təhsil Nazirliyi tərəfindən prosesin şəffaflaşmasına xidmət edən müəyyən işlər görüldü. Doğrusu, şəffaflıqla bağlı hər hansı bir iradım yoxdur. Məktəb direktorlarının işə qəbulu prosesində komissiya üzvü olaraq mən də iştirak etmişəm. Müşahidələrim həm də bunu mənə deməyə əsas verir ki, tamamilə şəffaf yanaşma var idi. Ümid edirəm, indi də belədir. Eyni zamanda direktor müavinlərinin işə qəbulu ilə bağlı prosedurlar həyata keçirilir. Nazirlik maraqlıdır ki, məktəb rəhbərliyi yerində olsun, şəffaf işləsin. Amma bəzən görürük ki, bunlar əks-effekt verir. Elə məktəb direktorları tanıyıram ki, görünüşü ilə "Kurtlar vadisi" serialındakı qorxulu obraza bənzəyirlər. Davranışları onları xatırladır. İnsanların içindəyik, təhsil ictimaiyyəti ilə sıx təmasdayam. Xeyli şikayətlər var. Direktorlar var ki, onların səs yazıları yayılır. Deyilən o qruplaşmanın başında duran həmin adamlardır. Çox təəssüf edirəm ki, mübarizə aparılsa belə, bu kimi hallar var. Onların yaratdığı o şəbəkələr məktəbləri iflic vəziyyətinə gətirib çıxarıb. Məktəb direktoru, müavinlər “burada mənəm, Bağdadda kor Xəlifə” prinsipi ilə işləməməlidir. Məktəblərdə pedaqoji şuralar ali idarəetmə orqanıdır və işlək olmalıdırlar. Direktora, digərinə xidmət etməli deyillər. Məktəb direktora, müavinlərinə deyil, xalqa, dövlətə, şagirdlərə xidmət etməlidir. Məktəbə öz şəxsi müəssisəsi kimi baxan quldur təfəkkürlü adamların olması qəbuledilən deyil. Müəllimlər bəzən sındırılır. Mən Elm və Təhsil Nazirliyində ictimai şurada üzv olarkən bizə çoxlu şikayətlər gəlirdi. Bir müəllimin haqqını necə tapdalayıblar, direktor müəllimin haqqını ayaqları altına atır. O direktorların bəzilərini hələ də işlədirlər. Onları himayə edən adamlar kimdir?! Özü də böyük məktəblər onlara etibar olunur. Əksər böyük məktəblərdə “Kurtlar vadisi” metodu hökm sürür. Amma müavin və rəhbər şəxslərin 3 və ya 5 illik rotasiya qaydasdında digər məktəblərlə əvəzləmək də tam çıxış yolu deyil. Çox sərt qaydalar tətbiq olunmalıdır. Məktəb rəhbərliyinə xeyli sayda gənclər gətirilib. Fikrimcə, bu da doğru addım deyil. Məktəb rəhbəri oturuşmuş, bir az ahıl yaşda olan, səbirli, təcrübəsi olan şəxslər olmalıdır. Kişi direktorlarının sayını artırmaq lazımdır. Direktorların onsuz da yerdəyişməsi aparılır, dəyişiklik isə yoxdur".

Klinik psixoloq, psixoterapevt Rövşən Nəcəfov isə “Yeni Müsavat”a məktəbdə qeyri-sağlam mühitin uşaqların psixikasına necə etməsindən danışıb: “Məktəb mühitinin uşaqların sağlam psixi inkişafında rolu daha çoxdur. Ailə mühitindən çıxmış uşaq həqiqətlərlə məktəbdə tanış olur. Məktəbin məqsədi bilik verməklə bərabər tərbiyə verməkdir. Bilik insanın tərbiyəsini tənzimləyir, amma bu bir az zaman alır. Ona görə də, məktəbdə sağlam psixoloji mühitin formalaşması üçün sərt qaydalar tətbiq edilməlidir. Məktəbdə rəhbərliklə müəllimlərin arasında uçurumun mövcud olması və ya müəllimlərlə müəllimlərin arasında olan qeyri-sağlam rəqabət uşaqların da şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərir. Böyük düşünmək istəyiriksə, kiçik insanlar olmamalıyıq. Gələcək üçün hər kəs əlini daşın altına qoymalıdır. Uşaqlar bizim yox, özlərinin gələcəyidir.

“Kurtlar vadisi” bir filmdir və real hadisələrə əsaslanmır. Filmdə müşahidə olunan düşüncələri real həyatla müqayisə etmək olar, amma müqayisə aparılan zaman həqiqətin filmdə olduğuna inanmaq olmaz. İnsan psixologiyası anlayışı elədir ki, rahatlıq üçün ən qısa həll yolunu niyyətləyir. Biz necə düşünürüksə, bu bizim doğrumuz ola bilər, amma həqiqət deyil. Bütün hallarda istənilən mühitdə sağlam düşüncə formalaşdırmaq istəyiriksə, insanlar arasında münasibətlər də sağlam tənzimlənməlidir. Uşaqlar üçün müəllim nümunədir və məktəb onların ikinci evidir. Birinci evdə olduğu kimi yanaşılmalıdır, amma məktəbin qaydaları üzərində dayanaraq. Yanaşma dəyişməlidir. Uşaqlara həm özlərinə, həm də başqalarına sevgi və qayğı təlqin olunmalıdır. Bunun üçün məktəbdə çalışan şəxslərin davranışları və ifadə etdiyi fikirlər ana xətdir. Məktəb psixoloqlarının sayı artırılmalı və fəaliyyətləri genişləndirilməlidir. Fərdi və qrup yanaşmaları üçün imkanlar yaradılmalıdır. Məktəb psixoloqlarının sosial əhəmiyyəti maddi və mənəvi olaraq tənzimlənməlidir. Məktəbdəki psixoloji mühitin dəyərləndirilməsində məktəb psixoloqlarının fikirləri əhəmiyyət kəsb edir".

**Psixoterapevt əlavə edib ki, rotasiya prosesi düşüncəni dəyişmir:** “Rotasiya prosesi uşaqların psixologiyasında hansı məqamları yaradacaq, onu uşaqlardan soruşmaq lazımdır. Mühitdə yaranmış adaptasiya prosesini radikal addımlarla dəyişmək doğru deyil. Uşaqların rəhbərliyə və ya müəllimlərinə fərdi münasibəti də formalaşır. Uşaqları məcburiyyət qarşısında qoyub yeni adaptasiya hallarına yol açmaq olmaz. Müsbət nəticələr də ola bilər, amma mənfi gedişatda özünü göstərmiş olacaq. Məsuliyyətli addımlar atıldığı zaman riskləri minimuma endirmək lazımdır. Məktəblərdə hüquq və psixologiya fənn olaraq tədris olunmalıdır. Uşaqlarda hüquqi düşüncə formalaşdırsaq, onlar heç vaxt başqalarının həyatına mane olmazlar. Psixologiya haqqında biliyə sahib olan şəxslər başqalarına qarşı "bullinq" etməz. Məktəb bütün uşaqların bərabər bilik və bacarıqlara sahiblənəcəyi ideoloji həyat tərzidir. Məktəbdə hər kəs fərqlidir və hər kəs bərabərdir. İstənilən fərqlilik məktəbdəki mühitin bərabərliyini pozmamalıdır. Nizam-intizam qaydaları şəxsi şəxsiyyətə çevirir".

❑ **Afaq MİRAYIQ,**
**“Yeni Müsavat”**



## Bakıda narkokuryerlik edən 5 nəfər tutuldu

**Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı son bir həftə ərzində silsilə əməliyyatlar keçirilib.**

APA DİN-ə istinadən xəbər verir ki, tədbirlərlə paytaxt sakinləri Rasim Kərimov, Nəriman Nərimanov, tanışı Ramil Allahverdiyev, Rüstəm Kərimov və İsa Ağayev saxlanılıblar. Onlardan ümumilikdə 19 kiloqram heroin, marixuana və psixotrop maddə metamfetamin aşkarlanıb. Saxlanılanların paytaxt ərazisində narkokuryerlik edən əsas şəxslər olduqları müəyyən edilib.

Faktlarla bağlı Nərimanov RPİ-də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb və saxlanılanların hər biri barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Qadın qətllərinin statistikası dəhşət saçır

**Son vaxtlar qadın qətllərinin statistikası dəhşət saçır. Təkcə bir ayda baş verən qadın qətllərinin sayına baxanda, açıq-aydın görünür ki, cəmiyyətimizdə qadınlara qarşı aqressiya xeyli artıb. Çox təəssüf ki, bu hadisələrdə ana qətlləri də var.**

## Lalə Mehralı: "Əgər bir cəmiyyətdə övlad anasını və yaxud atasını vəhşicəsinə qətlə yetirirsə, bu artıq həmin toplumun süqutu deməkdir"



Son bir ayda ölkədə qadın qətlləri ilə bağlı mediada yayılan məlumatlar bu cürdür:

5 avqust - Bərdə şəhərində 32 yaşlı Sədaqət İbrahimova azyaşlı uşağının gözü önündə qaynı tərəfindən balta ilə öldürülüb. Qətli törətməkdə təqsirləndirilən İbrahimov Azər Rəşid oğlu epilepsiya xəstəsi olub. Məlumata görə, qardaşı ilə bir yerdə yaşayan A.İbrahimov xəstəliyi ilə əlaqədar olaraq evdə mütəmadi narahatlıq yaradırmış. Sonuncu ailə münaqişəsi zəminində baş verən mübahisə zamanı o, qardaşı arvadına balta ilə xəsarət yetirərək qətlə yetirib. Azər İbrahimov hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb, faktla bağlı cinayət işi başlanılıb.

9 avqust - Sumqayıt şəhərində 23 yaşlı, iki uşaq anası Cəmilə Rəsulovanı 26 yaşlı qaynı İsrail Rəsulov qətlə yetirib. Hadisənin qısqanclıq zəminində baş verdiyi deyilir.

17 avqust - Bakı şəhərində 54 yaşlı Ceyran Rəhimova 56 yaşlı əri Həsənbala Rəhimov tərəfindən bıçaqla qətlə yetirilib.

20 avqust - Mingəçevirdə 45 yaşlı Natella Çıraqova 21 yaşlı oğlu Rəşad Çıraqov tərəfindən şəxsi münasibətlər zəminində öldürülüb. Rəşad Çıraqov iş üzrə şübhəli şəxs qismində tutulub.

24 avqust - Siyəzən şəhərində 28 yaşlı Şəbnəm Mustafazadə qısqanclıq zəminində 21 yaşlı qardaşı Səfər Mustafazadə tərəfindən bıçaqla qətlə yetirilib.

Ümumiyyətlə, dünyada hər gün yüzlərlə qadın qətlə yetirilir. Aparılan araşdırmalardan məlum olur ki, qadınların öldürülmə səbəbləri, şəraiti müxtəlif olsa da, mahiyyət baxımından səbəb eynidir - qısqanclıq, ailə-məişət problemi. Ölkəmizdə də qadın qətllərinin əsas səbəbləri bunlardır, qatillər isə böyük əksəriyyətdə ya ər, ya da keçmiş ər olur.

Qadın qətllərinin sayının artması cəmiyyətdə böyük narahatlıq doğurur. Bununla bağlı qadınların hüquqlarının müdafiəsi yönündə sosial proqramların həyata keçirilməsinə, mütəmadi olaraq maarifləndirmə kampaniyalarının aparılmasına, qadın sığınacaqlarının yaradılmasına baxmayaraq, qadın qətllərinin sayı durmadan artır. Bəziləri bu məsələdə sosial-iqtisadi çətinlikləri, bəziləri cəmiyyətdə gedən prosesləri, digərləri isə son vaxtlar milli-mənəvi dəyərlərin arxa plana keçməsini əsas gətirir.

Ölkədə qadın qətllərinin sayı niyə artır?

**Sosioloq Lalə Mehralı mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Əslində təkcə qadınların qətli deyil, ölkədə, ümumiyyətlə, ailədaxili münaqişələrin sayı artıb.

Bəli, çox təəssüf ki, bu cür cinayətlərin içərisində ana qətlləri də var.

Ana bütün cəmiyyətlərdə müqəddəs sayılır. Bu baxımdan ana qətli insana daha dəhşətli görünür.

Əgər bir cəmiyyətdə bir övlad anasına və yaxud atasına qıyırsa, vəhşicəsinə qətlə yetirirsə, bu artıq həmin cəmiyyətin süqutunun göstəricisidir. Yəni insanlar ata-anasına əl qaldıracaq dərəcədə hissiz, duyğusuz məxluqa çevrilirsə, bunun altında yatan səbəblər araşdırılmalıdır. Necə olur ki, insan onu dünyaya gətirən qadına belə rəhm etmir? Mərhəmət, rəhm duyğusu getdikcə azalmağa başlayıb.

Araşdırmalar onu göstərir ki, adətən qətl törədən insanlar həmin vaxt empatiya duyğusu hiss etmirlər. Məlum olduğu kimi, empatiya - özünü başqa insanın və ya canlının yerində hiss etmə bacarığı, başqasının dərdinə şərik olma hissidir

Hazırda empatiyası, mərhəməti, duyğusu olmayan insanların əhatəsində yaşayırıq və çox təəssüf ki, hər ötən gün onların sayı getdikcə artır. Nəticədə ailədaxili qətllərin də sayı artmağa başlayır.

Hesab edirəm ki, uzun illər aparılan televiziya, insan faktorunun əməyi olan ekologiya, həmçinin qidalanma terroru bugünkü nəticəni yaradıb. Yəni hazırda insana hər tərəfdən təzyiqlər olur. Müqaviməti, immuniteti olan dözdü, bu terroru inkar etdi, amma kimin ki, zəif xarakteri var idi, o, tez məğlub oldu, uduzdu.

Fikrimcə, bu problemin qarşısını almaq üçün ailə bağlarını möhkəmləndirmək lazımdır. Həmçinin mütləq şəkildə ailədaxili sosiallaşmanı, qohumluq əlaqələrini inkişaf etdirməliyik. Araşdıranda da məlum olur ki, ailədaxili qətllər, münaqişələr adətən ailə bağları qopmuş, ünsiyyətin minimuma düşdüyü ailələrdə baş verir.

Burada həm də cəmiyyət qınağı olmalıdır. Cəmiyyət ümumilikdə qadınlara qarşı edilən zorakılığa laqeyd yanaşmamalı, ictimai qınaq artırılmalıdır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Heyvanların səbəb olduğu yol qəzalarında 4 nəfər ölüb



**"Bir neçə gün əvvəl sosial mediada nəzarətsiz qalan atın yolun hərəkət hissəsinə çıxması nəticəsində baş verən qəza ilə bağlı videogörüntülər yayımlanıb. Xoşbəxtlikdən həmin qəza maddi zərərlə ötüşsə də, təəssüf ki, cari ilin yeddi ayı ərzində sahibsiz heyvanların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrində 4 nəfər həyatını itirib, 2 nəfər isə xəsarət alıb".**

APA xəbər verir ki, bu barədə DİN-in Baş Dövlət Yol Polisi İdarəsindən (BDYPİ) məlumat verilib.

Qeyd olunub ki, qanunvericilikdə mal-qaranın yolda nəzarətsiz qoyulmasına, asfalt və sement-beton örtüklü yollarla ötürülməsinə, mal-qaranı və at arabasını sutkanın qaranlıq vaxtı və ya məhdud görünmə şəraitində dəmir yollarından, yolların bu məqsəd üçün xüsusi ayrılmayan yerlərindən keçirilməsinə görə məsuliyyət nəzərdə tutulub və belə qəzalar zamanı mal-qara sahiblərinin məsuliyyətdən kənarda qalmaması üçün kəsərli tədbirlər görülür: "Bununla yanaşı, Baş Dövlət Yol Polisi İdarəsi yol qəzalarının səbəbləri içərisində sahibsiz ev və ya vəhşi heyvanların vurulması hallarının aktual olduğunu nəzərə alaraq, sürücüləri də hərəkət zamanı diqqətli və baş verə biləcək qəfil hadislərə qarşı hazırlıqlı olmağa çağırır".

# Göygöldə 4 nəfər dərmandan zəhərlənib, 10 yaşlı uşaq ölüb



**Göygöl rayonunda zəhərlənmə hadisəsi baş verib. APA-nın yerli bürosunun məlumatına görə, hadisə rayonun kəndlərindən birində qeydə alınıb. Onların "Niastol" adlı dərmandan zəhərləndikləri ehtimal edilir.**

Göygöl rayonunda dərmandan zəhərlənənlərin kimliyi açıqlanıb.

1961-ci il təvəllüdlü Mətanət Qasımova, 2018-ci il təvəllüdlü Qasımzadə Fidan Ceyhun qızı, 2014-cü il təvəllüdlü Simuzər Vəliyeva və 2014-cü il təvəllüdlü Aydan Orucovanın başını dərmanla yuyan zaman baş verdiyi bildirilir.

Nəticədə onların dördü də zəhərlənib, Aydan Orucova ölüb.

Avqustun 30-da saat 01:00 radələrində Göygöl rayonunun Balcılı kənd sakinləri 1961-ci il təvəllüdlü 1 nəfər (qadın cinsli) və 3 azyaşlı (2 qadın cinsli, 1 kişi cinsli olmaqla) dəqiqləşdirilməmiş dərman zəhərlənməsi diaqnozu ilə Göygöl Rayon Mərkəzi Xəstəxanasının Təcili tibbi yardım bölməsinə müraciət edib.

Bu barədə TƏBİB-dən bildirilib.

Məlumata görə, onlardan biri, 2014-cü il təvəllüdlü uşağın (qadın cinsli) həkiməqədər ölüm faktı qeydə alınıb.

Digər iki uşaq zəruri tibbi yardım göstərildikdən sonra ixtisaslı həkim müayinəsi üçün Gəncə Şəhər Birləşmiş Xəstəxanasının nəzdində fəaliyyət göstərən Uşaq Xəstəxanasına hospitalizasiya olunub. Onlardan birinin vəziyyəti ağır, digəri orta ağır qiymətləndirilir.

İlkin zəruri tibbi yardımdan sonra Abbas Səhhət adına Xəstəxanaya hospitalizasiya olunan ananın vəziyyəti isə hazırda orta ağır qiymətləndirilir.

YENİ MÜSAVAT
N 156 (8529) 31 avqust 2024

# Naxçıvanın enerji təhlükəsizliyində mühüm gəlişmə - rəylər

## Natiq Cəfərli: "Enerji təhlükəsizliyi baxımından İğdır-Naxçıvan qaz kəmərinin ciddi əhəmiyyəti var"

## Eldəniz Əmirov: "İğdır-Naxçıvan kəməri Azərbaycana öz qazını daha səmərəli istifadə etməyə şərait yaradacaq"

**"İğdır-Naxçıvan qaz xəttinin inşası yaxın zamanda tamamlanacaq". Xəbər verildiyi kimi, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Hakan Fidanla Ankarada keçirdiyi birgə mətbuat konfransı zamanı bildirib. Nazir qeyd edib ki, iki ölkənin enerji sahəsində həyata keçirdiyi layihələr bütün Avrasiya məkanının enerji xəritəsini dəyişdirir.**

Xatırladaq ki, Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu 2020-ci il dekabrın 15-də imzalanıb. Qaz kəmərinin təməlinin qoyulması mərasimi isə ötən il sentyabrın 25-də keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Layihə 2023-cü ildə qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb. İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldıracaq. Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə təxminən 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

Qeyd edək ki, layihəni Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və BOTAŞ həyata keçirir.

Bu ilin aprel ayında Azərbaycan və Türkiyənin hesablama palataları İğdır-Naxçıvan qaz kəmərinin tikintisi layihəsinin paralel auditi barədə razılığa gəlib. Müvafiq protokol aprelin 29-da Türkiyənin İğdır vilayətinin Aralıq rayonundakı "BOTAŞ" neft-qaz şirkətinin stansiyasında iki ölkənin hesablama palatalarının rəhbərləri tərəfindən imzalanıb. Sənədi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Türkiyə Hesablama Palatasının rəhbəri Metin Yener imzalayıb. Sənədin imzalanması mərasimində "BOTAŞ"ın baş direktoru Əbdülvahid Fidan da iştirak edib. "Bu təşəbbüs qardaş ölkələrin əməkdaşlığında yeni səhifə açacaq. Qaz kəməri layihəsinin auditi zamanı ən müasir nəzarət metodlarından və ən son texnologiyalardan istifadə olunacaq", - M.Yener jurnalistlərə bildirib.

İğdır-Naxçıvan qaz xəttinin inşasının Naxçıvanın energetik təhlükəsizliyi üçün önəmi, asılılığının azalması baxımından önəmini ekspertlərlə müzakirə etdik.

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, Naxçıvan Birinci Qarabağ müharibəsindən sonra kifayət qədər izolə olunmuş, hətta blokada şəraitində yaşamağa məcbur idi. Ekspert bölgədə Azərbaycan, Türkiyə və İran üzərindən enerji təhlükəsizliyinin təmin edilməsi üçün müxtəlif layihələrin həyata keçirildiyinə diqqət çəkdi: "Bu layihələrdən ən yaxşıları Türkiyə üzərindən həyata keçirilən layihələrdir. Türkiyə və Azərbaycanın dostluğu, qardaşlığı birgə layihələrin əhəmiyyətini artırır və təhlükəsizliyə təminat yaradır. Naxçıvanın Türkiyə üzərindən qazla təmin olunması muxtar respublikanın digər ölkələrdən, o cümlədən İrandan asılılığını xeyli dərəcədə azaldacaq. Naxçıvana ötürülən qazın Azərbaycan qazı olduğunu nəzərə alsaq, bu, Azərbaycana daha ucuz başa gələcək. Naxçıvanın illik qaz istehlakı təxminən 500 milyon kub metrdən bir qədər azdır. Bu böyük rəqəm deyil. Azərbaycan bunu öz gücü hesabına kifayət qədər təmin edə bilər. İğdır-Naxçıvan qaz kəmərinin gücü təqribən bu səviyyədədir. Buna görə də Naxçıvan üçün enerji təhlükəsizliyi baxımından qaz kəmərinin ciddi əhəmiyyəti var. Eyni zamanda yeni iş yerlərinin yaradılması, yeni sənaye müəssisələrinin yaranması və s. ümumilikdə Naxçıvan bölgəsinin inkişafına ciddi töhfə verə bilər".

**İqtisadçı Eldəniz Əmirov** hesab edir ki, Naxçıvanın blokadada olmasının hiss edilməməsi, həyatın tam axarında getməsi üçün Azərbaycanın əsas hissəsi ilə, bu mümkün olmadıqda isə Türkiyə ilə nəqliyyat-kommunikasiya və digər xətlərin açılmasına ehtiyac var. "Yeni Müsavat"a şərhində ekspert xatırlatdı ki, Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu müharibə bitdikdən dərhal sonra, 2020-ci ilin dekabr ayında imzalanıb: "Layihə kifayət qədər maliyyətutumludur. Boru kəmərinin diametri 40 santimetrdir. Məsafənin 4/5 hissəsi Türkiyə ərazisindən çəkilir. 97,5 kilometrlik məsafənin 80 kilometri Türkiyənin, qalan hissəsi isə Azərbaycanın ərazisindən keçir. Ötürücülük gücünü isə kifayət qədər yüksək hesab etmək olar-gün ərzində 2 milyon kub metr, ildə isə təxminən 740 milyon kub metr. Düşünürəm ki, bunu rahat şəkildə 1 milyard kub metrə çatdırmaq olar. Nəzərə alsaq ki, Zəngəzur dəhlizinin açılması mövzusu aktuallığını saxlayır, dəhliz açıldıqdan sonra Azərbaycanın əsas hissəsindən Naxçıvana müxtəlif kommunikasiya xətləri, eyni zamanda qaz boru kəməri çəkiləcək. Bununla da Azərbaycan qazı Naxçıvanı təmin etməkdən əlavə, Naxçıvan üzərindən yeni kəmər vasitəsilə əks istiqamətə, Türkiyəyə nəql edilə biləcək. İğdır-Naxçıvan boru kəməri uzun müddətdə aktual olacaq. Bu kəmər bir müddət İrandan asılılığı azaltmağa xidmət edəcək. İranın Astara tərəfdən qaz verməsi Azərbaycanı ciddi qaz itkisinə məruz qoyur. 1:1 nisbətində qaz mübadiləsi həyata keçirilmədiyindən Azərbaycan daha aşağı şərtlərlə bunu etməyə məcburdur. İran tərəfi isə mübadilə prosesində qazanan tərəfdir. Bir sözlə, İğdır-Naxçıvan qaz boru kəməri İranla bağlı məsələnin bilavasitə həllini tapmasına imkan verəcək. Yəni bu boru kəməri təkcə Naxçıvan üçün deyil, ümumilikdə Azərbaycan üçün də öz qazını daha səmərəli istifadə etməyə şərait yaradacaq və Azərbaycan qazının gələcəkdə yeni xətlə Türkiyə üzərindən Avropaya ötürülməsində əlavə fürsətlər yaradacaq".



Qeyd edək ki, İğdır-Naxçıvan təbii qaz kəmərinin bu ilin sonu, ya da yeni ilin əvvəlində istifadəyə verilməsi gözlənilir. Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar bir neçə ay öncə mətbuata açıqlamasında bildirib ki, inşaat işləri ən qısa zamanda bitəcək. Nazir həmçinin qeyd edib ki, iki ölkə arasında imzalanan razılaşmaya əsasən, 2030-cu ilə qədər Türkiyə və Avropaya nəql edilən Azərbaycan təbii qazının həcmi artırılacaq.

❑ **Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"**



## Məcburi audit subyektlərinin 40%-i yoxlamadan keçməyib

**2023-cü il ərzində respublika üzrə 4937 məcburi audit subyektindən 2962-i (60%-i) auditdən keçib, 1975-i ( 40%-i) isə auditdən keçməyib. Bu barədə "APA-Economics" Auditorlar Palatasına istinadən xəbər verir.**

Qeyd edək ki, Azərbaycanda səhmdar cəmiyyətlərin 163-ü (43%-i), məhdud məsuliyyətli cəmiyyətlərin 920-i (32%-i), bələdiyyələrin 862-i ( 53.7%-i), siyasi partiyaların isə 30-u (60%-i) auditdən keçməyib.



## "Avroviziya 2025"in keçiriləcəyi şəhər məlum olu

**2025-ci ildə "Avroviziya" mahnı müsabiqəsinin İsveçrənin Bazel şəhərində keçiriləcəyi məlum olub. APA "Reuters"ə istinadən xəbər verir ki, nəqliyyat, mehmanxana imkanları və təhlükəsizlik daxil olmaqla, standartlara cavab verdiyinə görə müsabiqənin Bazeldə keçirilməsinə qərar verilib.**

Qeyd edək ki, bu il dünya üzrə 163 milyon tamaşaçının izlədiyi müsabiqənin finalı mayın 17-də keçirilib.

Yeni MÜSAVAT
N 156 (8529) 31 avqust 2024

# Zelenskinin qələbə formulu - blef, yoxsa...

## Hərbi ekspert: “Həmin briqadaların silah-sursatla təmin olunmasını, ABŞ başda olmaqla, NATO ölkələri öz üzərinə götürüb”

**Avqustun 24-də Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsinin 30 ayı arxada qaldı. Müharibənin daha neçə ay və ya il sürəcəyini isə hələ ki heç kim bilmir. “Forbes” nəşri Ukraynada yeni mexanikləşdirilmiş briqadaların yaradılmağa başladığını yazıb və bunu Ukrayna rəhbərliyinin müharibənin tezliklə bitəcəyini gözləmədiyinin əlaməti sayıb. Məlumata görə, yeni mexanikləşdirilmiş briqadalar başqa ölkələrdə təlim keçəcək və orada yaşayan ukraynalılar bura cəlb olunacaq.**

“Sentyabrda qələbə planını həm ABŞ prezidentinə, həm də Kamala Harris və Donald Trampa təqdim edəcəyəm”.

Bunu Ukrayna prezidenti Vladimir Zelenski jurnalistlərə bildirib. O, təfərrüatları açıqlamasa da deyib ki, sözügedən planın istiqamətlərindən biri Rusiyanın Kursk vilayəti ilə bağlıdır: “İkinci istiqamət Ukraynanın qlobal təhlükəsizlik infrastrukturundakı strateji yeri, üçüncüsü Rusiyanın müharibənin diplomatik yolla başa çatmasına məcbur edilməsi, dördüncü elementi isə sırf iqtisadiyyatla əlaqədardır. Bütün bunlarla bağlı təfərrüatları açıqlamayacağam, lakin plan artıq hazırdır. Mənim onu ilk növbədə ABŞ prezidentinə təqdim etməyim ədalətli addım olacaq. Çünki bu planın uğurlu olması məhz ondan, daha doğrusu, onların bizə plan üzrə tələb olunan vasitələri verib-verməyəcəyindən asılıdır. Sözügedən plan Kamala Harris və Donald Trampa da göndəriləcək. Çünki biz onlardan hansının ABŞ prezidenti seçiləcəyini bilməsək də, həmin planın icra olunmasını çox istəyirik”.

Bu arada Ukraynanın ilk dəfə özünün 600-700 km-lik məsafəyə uça bilən ballistik raketlərini sınaqdan çıxardığı haqda məlumat yayılıb. Bu raketlər Ukrayna ordusu üçün nə deməkdir?

**Ehtiyatda olan polkovnik, Azərbaycan Müdafiə Nazirliyinin Hərbi Polisinin keçmiş rəisi Rövşən Məhərrəmov bu məsələyə geniş aspektdən yanaşır:** “Rusiya Ukraynanın artıq müəyyən ərazilərini işğal edib. Xerson və Zaporojye vilayətlərinin bir hissəsi ələ keçirilib, Luqanskın 90 faizi rusların nəzarəti altına keçib. Donetskin isə 60-70 faizi rus işğalçılarının əlindədir. Ruslar o istiqamətlərdə güclü hücumlar edib, əsas qüvvələrini yerləşdirə biliblər. Hədəf Donetski tam nəzarətə götürməkdir. Son günlərdə isə Ukrayna ordusu alternativ addımlar atdı. Kurskda xüsusi əməliyyat keçirildi. Rusların 3 aya ələ keçirdikləri əraziləri bir neçə saata Ukrayna ordusu geri aldı. 1250 kvadrat kilometrdən çox ərazini Ukrayna öz nəzarətinə aldı. Bu, tam məxfi hazırlanmış bir əməliyyat idi. Artıq Belqrad istiqamətində də Ukraynanın hücumları var. 200 mindən çox insanı Rusiya Kurskdan Belqrada köçürüb. Bir sözlə, qaçqınları yerləşdirməklə məşğuldur. İndiki şəraitdə hər hansı bir sülhdən söhbət gedə bilməz. Tərəflər bir-birilərinin ağır şərtlərini qəbul edən deyillər. Savaş başlayandan bu günə qədər bir milyona yaxın insan həyatını itirib. Bu da çox böyük bir rəqəmdir. Təsəvvür edin ki, Əfqanıstanda 9 il ərzində müharibədə 1400 nəfər həyatını itirmişdi. Ukrayna tərəfindən mülkü əhalidən də həyatını itirənlər az deyil. Bilirsiniz ki, Rusiya tərəfi təkcə hərbi yönlü obyektlərə deyil, mülki əhalinin yaşadığı şəhərlərə də zərbələr endirir. Amma biz görürük ki, Ukrayna Kursk istiqamətində irəliləyəndə rusların etdiklərini etmirlər, yeni yaşayış məntəqələrinə zərbələr endirmirlər. İnsanlar da onları normal qarşılayırlar. Tarixə baxanda o ərazilərdə ruslar yaşayıblar. Zelenskinin dediyi plan güman edirəm ki, Amerikada hazırlanıb. Hesab edirəm ki, bu plan Rusiya üçün böyük bir təhlükədir. Həmin briqadaların silah-sursatla təmin olunmasını, Amerika başda olmaqla, NATO ölkələri öz üzərinə götürüb. Tramp və ya Harrisdən hansının seçilməsindən çox şey asılıdır. Açığı, düşünmürəm ki, Tramp belə seçilsə müharibəni dayandıracaq. Xatırlayırsınızsa, Tramp ilk dəfə hakimiyyətə gələndə seçki kampaniyası vaxtı bildirmişdi ki, qoşunları Suriyadan çıxaracaq. Amma verdiyi sözə əməl etmədi”.

**Hərbi ekspert Ukraynanın hərbi sənayesini gücləndirdiyinə də diqqət çəkdi**: “Kurskdan təsəvvür edin ki, Ukrayna Moskva və digər şəhərlərə zərbələr endirə bilər. 600-700 kilometr məsafə çox uzun məsafədir. Bu ballistik raketlər döyüş cəbhəsində vəziyyəti Ukraynanın xeyrinə dəyişə bilər. Onu da qeyd edim ki, Amerikadan alınan raketlərdən Rusiyanın dərinliyinə doğru istifadə etmək olmaz. Amma bu raketlər Ukraynanın özünün istehsal etdiyi raketlərdir. Hesab edirəm ki, Ukrayna Kurskda mövqelərini daha da gücləndirəcək”.

**Siyasi təhlilçi Sona Əliyeva Ukraynanın qələbə cəhdlərinə Britaniya kəşfiyyatının nəzarət etdiyini söylədi:** “Ukrayna -Rusiya savaşı çox güman ki, gələn ilin ortalarına qədər davam edəcək. Ona görə ki, hazırda Ukraynanın qələbəsi istiqamətindəki bütün addımlara Britaniya kəşfiyyatı nəzarət edir və prosesin koordinasiyası Qərb koalisiyasındadır. ABŞ seçkilərə qədər Ukraynaya yeni öldürücü silahlar göndərmək haqqında düşünür. Bu da ukraynalıların Kurskda möhkəmlənməsi üçündür. Kiyevin yeni 600-700 kilometrlik raketləri sınaqdan çıxarması da elə bu planın tərkib hissəsidir. İsrailli mütəxəssislərin yardımı ilə hazırlanan bu raketlər Kursk radiosuna yaxın bütün rus hədəflərini neytrallaşdırmalıdır. Artıq Kursk istiqamətində 3 min kvadrat kilometr əraziyə Ukrayna ordusu nəzarət edir. Bu istiqamətdə Ukrayna ordusunun qismən irəliləməsi də nəzərdə tutulur. Bu da Rusiyanı atəşkəs masasına oturtmaq üçündür. Çox güman ki, Zelenskinin ABŞ-a təqdim edəcəyi gizli qələbə planı da elə bununla bağlıdır. Düşünürəm ki, yaxın aylarda Rusiyanın bir neçə müttəfiqi Kremli Qərblə savaşda yalnız buraxacaq. Bunu Moskvada da yaxşı başa düşürlər. Hətta qış aylarında Kreml administrasiyası Putini hakimiyyətdən kənarlaşdıra bilər. Bu, Rusiya dövlətçiliyinə təhdid yaranacağı halda mümkündür. 600-700 kilometrlik raketlərin sınaqdan keçirilməsi ilə bağlı yayılan xəbərlər bir məsələni də gündəmə gətirir. Kiyev bu raketlərlə Moskvanı da vura bilər. Çünki Ukrayna Silahlı Qüvvələri hazırda Moskvanın 500 kilometrliyindədir. Bir sözlə, Ukraynaya qələbə üçün "sonuncu təkan" lazımdır. Bu təkan Ukraynadan daha çox Britaniyaya vacibdir".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov hər iki tərəfin bir-birilərinin içərilərinə doğru irəlilədiyini qeyd etdi:** “Ukraynanın quru əməliyyatlarda çox irəliləməsi üçüncü dünya müharibəsi demək olar. Rusiya da Ukraynada irəliləyir. Bunu çox adam nəsə unudur. Rusiya Ukraynanın daxilinə girəcək qədər Ukrayna girə bilərmi? Bunun üçün canlı qüvvə resursu varmı? Tarixən Rusiyanı xarici müdaxilə məğlub etməyib. Daxildə iğtişaş olmasa, Rusiya Kursku daha böyük uğurlarla kompensasiya edəcək. Rusiya sonda Kurskda olan qüvvələri mühasirəyə salmaq istəyəcək. Bu, baş verərsə, Zelenskinin sonu olar. Ona görə Zelenski kimi rəhbərə lazımdır ki, işə digər qüvvələr də qoşulsun. Ukrayna ballistik raket atsa, Rusiya Ukrayna şəhərlərinin altını üstünə çevirər. Vladimir Putinin bədən dili çox rahatdır. Həmin şeyi Zelenski haqqında demək olmur. Vladimir Putin heç kimə hesabat vermir. Amma Zelenski Baydenə hesabat verir. Bu, əsas fərqdir”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**





## Nüvə müharibəsinin başlaya biləcəyi barədə xəbərdarlıq

**Nüvə müharibəsi başlaya bilər. “Report” xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan Lyublyanada Sloveniyanın xarici və Avropa işləri naziri Tanja Fajonla birlikdə keçirdiyi mətbuat konfransında deyib.**

O bildirib ki, Ukraynada davam edən müharibənin nüvə savaşına çevrilməsi ehtimalı var.

H.Fidan həmçinin söyləyib ki, Avropanın mərkəzində davam edən müharibə faciədir: “Müharibənin gətirə biləcəyi növbəti riskləri təxmin etmək mümkün deyil. Ona görə də müzakirələr başlamalıdır. Müharibənin regiona daha çox təsir etməsinin qarşısı alınmalıdır”.

YENİ MÜSAVAT
N 156 (8529) 31 avqust 2024

# "Amazon"un vitse-prezidenti və "YouTube"un həmtəsisçisi Bakıya gəlir

**10-11 oktyabr 2024-cü il tarixlərində Bakı Konqres Mərkəzində "PAŞA Holding"in təşkilatçılığı ilə "INMerge" İnnovasiya Sammiti baş tutacaq.**

"APA-Economics" xəbər verir ki, regionun ən böyük innovasiya sammitinin məqsədi innovasiya ekosisteminin inkişafına töhfə vermək, startaplar və investorları bir araya gətirərək onlara əməkdaşlıq üçün fürsət yaratmaq, eləcə də innovasiya ekosisteminin bütün iştirakçıları arasında fikir və təcrübə mübadiləsi üçün platforma qurmaqdır.




Bu il "INMerge" İnnovasiya Sammit tədbirində "YouTube"un həmtəsisçisi Steve Chen iştirak edəcək. Eləcə də təsdiqlənmiş spikerlar arasında "Amazon"un vitse-prezidenti və CTO-su Werner Vogels və "Avito"nun keçmiş baş icraçı direktoru Vladimir Pravdivy də var. Bununla yanaşı, "Paradox Strategies" və "InnovationForce" şirkətlərinin qurucusu, Harvard Biznes Məktəbinin professoru Linda Hill, Stenford Universitetin professoru Ilya Strebulaev və "Vodafone" şirkətinin region üzrə rəhbəri Johannes Hummer də spikerlər siyahısına qoşuldular.

Onlarla yanaşı, ölkəmizdən "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov və ekosistem üzrə baş icraçı dirertor Fərid Məmmədov, "Kapital Bank"ın baş icraçı direktoru Fərid Hüseynov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri İnarə Vəliyeva və "4SİM" icraçı direktoru Fariz Cəfərov çıxış edəcəklər.

Qeyd edək ki, bu il sammitdə maliyyə texnologiyaları, rəqəmsallaşma, elektron ticarət, telekommunikasiya, əlavə dəyər xidmətləri, yeni iqtisadiyyat və digər sahələr müzakirə olunacaq.

# Tiflis prospektində "manatlıq" taksilərin fəaliyyəti dayandırılıb



**Bakının Tiflis prospektində, "20 Yanvar" metrostansiyası istiqamətində "manatlıq" taksilərin fəaliyyəti dayandırılıb. "Report"un ərazidə olan əməkdaşının məlumatına görə, buna səbəb həmin ərazidə avtobus zolağının salınmasıdır.**

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis baş leytenantı Rüstəm Əhmədli "Report"un sorğusuna cavab olaraq bildirib ki, sözügedən ərazidə avtobus zolaqlarının salınması ilə nəqliyyatın hərəkətinə maneə törədən avtomobillərin hərəkəti dayandırılıb:

"Ərazidə artıq avtobus zolaqları salınıb. Taksilərin ərazidə duraraq nəqliyyatın hərəkətinə maneə törətmə halları aradan qaldırılıb. İnzibati Xətalar Məcəlləsində olan son dəyişikliklərə əsasən yol nişanları ilə işarələnmiş, ümumi istifadədə olan nəqliyyat vasitələri üçün hərəkət zolağı olan yollarda digər nəqliyyat vasitələrinin həmin zolaqda dayanmasına və ya durmasına görə 100 manat məbləğində cərimə edilir. Sözügedən ərazidə ümumi istifadədə olan nəqliyyat vasitələrinin rahat və fasiləsiz hərəkəti nəzərdə tutulan xüsusi zolaq və həmin zolağı bildirən yol nişanı və nişanlanma xətti mövcuddur və bu kimi qaydaları pozan sürücülər barəsində qanunamüvafiq tədbirlər həyata keçirilir. Bütün bunları nəzərə alaraq digər nəqlliyyat vasitələrinin sürücülərindən yol hərəkəti qaydalarına riayət olunması xahiş olunur".



# Dəmir yolundan 150 kq armatur və yanacaq oğurlandı

**Avqustun 29-da Şabran rayonu ərazisində dəmir yolundan 150 kq armaturu və 30 litr dizelin oğurlanması barədə polisə məlumat daxil olub. Nəqliyyatda Baş Polis İdarəsi Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlini törətməkdə şübhəli bilinən H.Abdullayev müəyyən olunaraq saxlanılıb.**

Araşdırma aparılır.



# İrandan Azərbaycana 29 kq narkotikin keçirilməsinin qarşısı alındı

**Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" və "Lənkəran" sərhəd dəstələrinin xidməti ərazisində ümumi çəkisi 29 kiloqram 068 qram narkotik vasitə marixuananın və 1488 ədəd metadon M-40 həbinin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən APA-ya verilən məlumata görə, avqust ayının 26-da saat 08:40-da "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumi çəkisi 16 kiloqram 520 qram narkotik vasitə marixuana və 1488 ədəd metadon M-40 həbinin, avqust ayının 30-da saat 01:40-da "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində ümumi çəkisi 12 kiloqram 548 qram narkotik vasitə marixuananın qaçaqmalçılıq yolu ilə ölkəmizə keçirilməsinin qarşısı alınıb.



# Küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıq verildi

**Sentyabrın 1-3-ü tarixlərində bəzi bölgələrdə küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıq verilib. Musavat.com xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.**

Bildirilib ki, Neftçala, Salyan, Hacıqabul, Qobustan, Quba, Qusar, Xızı, Ordubad, Culfa, Şərurda fasilələrlə şərq küləyi əsəcək və küləyin sürəti 13.9-20.7 m/san təşkil edəcək, bu da sarı xəbərdarlığa uyğundur.

Həmçinin Siyəzən, Şabran, Xaçmaz rayonlarında fasilələrlə şərq küləyinin əsəcəyi və küləyin sürətinin 20.8-28.4 m/san olacağı gözlənilir. Bu isə narıncı xəbərdarlıq deməkdir.

# Sumqayıtda 18 yaşlı oğlan bıçaqlanıb



**Sumqayıtda 17 yaşlı oğlan bıçaqlanıb. APA xəbər verir ki, hadisə Sumqayıt bulvarında qeydə alınıb. Abşeron rayon sakini 2007-ci il təvəllüdlü Qaraşov Hüseyn Səməd oğlu münaqişə zəminində 2006-cı il təvəllüdlü Qənbərov Elmar Elnur oğluna bıçaqla xəsarət yetirib.**

Yaralı dərhal xəstəxanaya çatdırılıb.

Fakt araşdırılır.

YENİ MÜSAVAT
Son səhifə
N 156 (8529) 31 avqust 2024
Avqust

## Kişilərin sağlamlığına zərərli olan dörd qida - xəbərdarlıq

**Amerikalı alimlər kişilər üçün xüsusilə zərərli olan məhsulların dörd kateqoriyasını müəyyən ediblər. Bu gündəlik məhsullar kişilərin sağlamlığına ciddi zərər verə bilər.**

Milli.Az Lent.az-a istinadən bildirir ki, müntəzəm istifadəsi bədəndə ciddi xəstəliklərə və geri dönməz dəyişikliklərə səbəb ola bilər.

**Qızardılmış ət**

Qızardılmış ətdə bədənə ciddi zərər verə biləcək yüksək konsentrasiyalı kanserogenlər var. Ətin yüksək temperaturda qızardılması prosesində heterosiklik aminlər və polisiklik aromatik karbohidrogenlər əmələ gəlir. Bu maddələr xərçəng və ürək-damar patologiyalarının inkişafına kömək edə bilər.

**Qızardılmış yumurta**

Bir çox kişilər günə omletlə başlamağı, bir dəfəyə 3-4 yumurta yeməyi xoşlayır. Ancaq belə bir vərdiş zərərli ola bilər. Fakt budur ki, yumurta, xüsusilə də qızardılmış yumurtalarda çox miqdarda xolesterin var.

Gündəlik qaynadılmış yumurta istehlakı qanda zərərli lipidlərin yığılmasına və ürək-damar xəstəliklərinin riskini artıra bilər. Sağlamlığa mənfi təsirlərin qarşısını almaq üçün həkimlər həftədə iki dəfə yumurta qəbulunu məhdudlaşdırmağı məsləhət görürlər.

**Kolbasa, sosiska**

Kolbasa kişi sağlamlığı üçün əhəmiyyətli risklər daşıyan məhsullardır. Onların tərkibində yüksək miqdarda duz, doymuş yağ, nitratlar və nitritlər kimi kimyəvi əlavələr var.

Bu maddələr hipertoniya, ürək xəstəliklərinin və xərçəngin, xüsusən də prostat xərçənginin inkişafına kömək edə bilər. Bundan əlavə, belə ət məhsullarının müntəzəm istifadəsi cinsi funksiyanın azalmasına səbəb ola bilər. Kişilərə bu qidaları balıq, quş əti və paxlalılar kimi daha təbii protein mənbələri ilə əvəz etmələri tövsiyə olunur.

**Pivə**

Pivə məşhur içkidir, lakin onu içmək kişilərin sağlamlığı üçün ciddi nəticələrə səbəb ola bilər. Pivədə hormonal tarazlığı pozan və testosteron səviyyəsini azaldan fitohormonlar var. Bu, cinsi funksiyanın zəifləməsinə və erektil disfunksiyanın inkişafına səbəb ola bilər.

Bundan əlavə, pivə yüksək kalorilidir, bu, artıq çəki artımına və piylənmənin inkişafına kömək edir, bu da öz növbəsində ürək-damar xəstəlikləri və diabet riskini artırır. Kişilər sağlamlıqlarını qorumaq üçün pivə istehlakını məhdudlaşdırmalı və ya ondan tamamilə imtina etməlidirlər.

# Süni intellektə malik krossover təqdim olunub



**“Smart” rəsmi olaraq “#5" adlandırılmış yeni krossoveri təqdim edib və bu, model xəttinin ən iri avtomobili olub. Elektromobilin mühərrik çeşidi dörd elektrik stansiyasından ibarət olacaq, salonda isə üç displeyli media sistemi və süni intellekt əsaslı səs köməkçisi yer alacaq. Çində satışlar bu ilin sonuna qədər, Avropada isə 2025-ci ildə başlayacaq.**

Oxu.Az xəbər verir ki, bu barədə Auto.ru məlumat yayıb.

Seriyalı krossoverin görünüşü ümumilikdə aprel ayında təqdim edilən eyniadlı konseptin dizaynını təkrarlayır. Elektromobilin ölçüləri 2.9 metrlik təkər bazası ilə 4705x1920x1705 millimetrdir ki, bu da “Smart #5"i, məsələn, "Toyota RAV4"dən xeyli böyük edir. Təkərlər 20 düymlükdür, baqajın həcmi isə 1 530 litrə qədərdir. Bundan əlavə, ön kapotun altında daha 72 litr həcm var.

“Summit Edition” adlı xüsusi versiya isə artıq səyahət üçün aksesuar dəsti - ekspedisiya baqajı, kiçik əşyalar üçün asma qutu, gövdənin altındakı qoruyucu və əlavə işıqla təqdim edilib.

## Bunları bilirsinizmi?

* Dünya yaranandan bu günə qədərki hər şeyi 24 saata sığdırmağa çalışsaq, insanlar bu vaxtın sadəcə 1 dəqiqə 17 saniyəsini təşkil edər.

* Helikoprin adlı köpək balığının 270 milyon il öncə yaşadığı düşünülür. Onu qəribə edən özəlliyi isə mişar dişli dairəvi çənəsi olub.

* Çində ingiliscə danışanların sayı Amerikadakılardan daha çoxdur.

* Çox məcbur qalmadıqca qar yeməyin. Çünki onu əritmək üçün bədəndə olduqca çox enerji sərf edilir.

* İnsanlar oksigensiz 3 dəqiqə, susuz 3 gün və yemək yemədən 3 həftə yaşaya bilər.

* 2011-ci ildə Yaponiyada baş verən 8,9 ballıq zəlzələ nəticəsində günlərin uzunluğu 1,8 mikro saniyə azalıb.

* Qarışqalar məcbur qaldıqlarında 2 həftə ərzində suyun altında yaşaya bilirlər.

* Vakuumda (havasız və cazibə qüvvəsinin olmadığı məkanda) ağlamaq mümkün deyil. Çünki göz yaşı aşağı doğru hərəkət edə bilmir və gözdən yaş çıxmır.

* İnsanların omba sümüyü betondan daha möhkəmdir.

* Ağcaqanad əleyhinə spreylər əslində onların insanlara yaxınlaşmasını əngəlləmir. Sadəcə olaraq ağcaqanadların hissiyatını bağlayır və bir növ insanları gizləyir.

* “Süd yolu” qalaktikasında 400 milyarddan çox ulduz olduğu düşünülür.

* Bir insan gündə ən az 500 litr oksigen istifadə edir.

* Hər gün 275 milyona yaxın yeni ulduz yaranır.

* Gözlərin hər biri 130 milyondan çox görmə sinir hüceyrəsindən ibarətdir. Hər hüceyrənin içində isə 100 trilyon atom var. Bu rəqəmlər isə ümumilikdə dünyadakı bütün ulduzların sayından daha çoxdur.

* Hazırda dəniz aləmində 180-ə yaxın balıq növü işıq görmədən yaşayır.

* Əgər bir sözü xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. O zaman beyinin fəaliyyəti daha da artır və yaddaşı işə salmağa kömək edir.

* 600 kiloqramlıq bir balinanın ürək damarının içinə bir insan yerləşə bilər.

*Bir insan yaşadığı müddətdə ortalama 23 min dəfə göz qırpır, 100 min dəfə ürəyi döyünər, 23 min dəfə nəfəs alar, qaraciyərləri ilə 1500 litr qan süzülər, mədəsi ilə 2 litr asit turşusu istehsal edər.

# Gündə neçə fincan qəhvə içmək olar? - İnfarkta səbəb olur



**Həkimlər gündə neçə fincan qəhvənin infarkt riskini artırdığını açıqlayıblar. Həddindən artıq qəhvə içmək ürək yüklənməsinə və damarların zədələnməsinə səbəb ola bilər. Araşdırmalar göstərib ki, gündə 400 mq-dan çox kofein qəbul etmək qan təzyiqini və ürək döyüntüsünü artıraraq ürəyin daha çox işləməsinə səbəb olur. Hindistandakı tibb kollecinin mütəxəssisləri izah etdilər ki, bu miqdarda kofein təxminən dörd fincan qəhvə, on qutu “Coca-Cola” və ya iki enerji içkisinə uyğundur.**

92 sağlam yetkindən toplanan məlumatlar göstərib ki, bu səviyyədə kofein qəbul edən insanlar intensiv məşqdən daha yavaş sağalırlar. Tədqiqat iştirakçılarının beşdə biri gündəlik 400 mq-dan çox kofein qəbul edir ki, bu da hətta sağlam insanlarda da qan təzyiqini yüksəldə bilər. Müntəzəm kofein qəbulu parasimpatik sinir sistemini poza bilər ki, bu da öz növbəsində qan təzyiqini və ürək döyüntüsünü artırır.

Həddindən artıq kofein də baş ağrısı, narahatlıq və ürəkbulanma kimi yan təsirlərə səbəb ola bilər. Tədqiqatlar həmçinin göstərir ki, gündə 600 mq-dan çox kofein qəbul edən insanların, yəni təxminən altı fincan qəhvənin qan təzyiqi əhəmiyyətli dərəcədə artıb.

Yüksək qan təzyiqi niyə təhlükəlidir? Yüksək qan təzyiqi ürək xəstəliyi, iflic, demans və böyrək çatışmazlığı riskini artırır. Britaniya Ürək Fondunun diyetoloqu Viktoriya Taylor deyir ki, çay və ya qəhvənin orta səviyyədə istehlakı - gündə 4-5 fincan - əksər insanlar üçün təhlükəsizdir. Bununla belə, bəzi insanlar kofeinə daha həssas ola bilər və ürək döyüntüsünün artması ilə üzləşə bilər və onu istehlak etməkdən çəkinməlidirlər. Kofein ürək dərəcəsini və qan təzyiqini artıraraq bədəni stimullaşdıra bilsə də, hipertoniya olmadan müntəzəm istifadə zərərli olmamalıdır. Bununla belə, sizə yüksək təzyiq, taxikardiya və ya angina diaqnozu qoyularsa, mütləq həkiminizlə məsləhətləşin.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
Lisenziya N: B 114
SAYI: 1.500